## PREZİDENT İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEV ADINA NEFT EMALI ZAVODUNDA BİTUM QURĞUSUNUN VƏ MAYE QAZDOLDURMA MƏNTƏQƏSİNİN AÇILIŞINDA İŞTİRAK EDİB



Heydər Əliyev adına neft emalı zavodunda aparılan yenidənqurma və modernləşdirmə layihəsinin birinci mərhələsi çərçivəsində inşa edilən yeni bitum qurğusunun və maye qazdoldurma məntəqəsinin dekabrın 21-də açılış mərasimi olub...

Bax səh. 2

## İLHAM ƏLİYEV FENOMENİ - SİYASİ QƏTİYYƏT VƏ MÜDRİKLİK ÖRNƏYİ

Artıq 15 ildir ki, müstəqil Azərbaycan dövlətinə Prezident İlham Əliyev rəhbərlik edir. Dünya üçün risklərlə dolu olan bir dövrdə Cənubi Qafqaz kimi mürəkkəb geosiyasi məkanda uğurlu siyasət aparmaq böyük qüdrət tələb edir. Təcrübə göstərir ki, Azərbaycan Prezidenti bu aspektdə olduqca uğurlu lider-rəhbərdir. Çünki keçən müddətdə Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrilib. Hazırda ölkənin beynəlxalq aləmdə nüfuzu yüksəkdir və bu proses durmadan davam edir. Azərbaycanın əməkdaşlıq imkanları günü-gündən daha da genişlənir. Ölkə ciddi beynəlxalq layihələrin həyata keçirilməsində...



Bax səh. 4



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 22 dekabr 2018-ci il, şənbə / № 243 (5370). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Binəqədi Rayon Məhkəməsinin yeni inzibati binasının açılışı olub



*Prezident İlham Əliyev açılışda iştirak edib*



## Prezidentin iş günü

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Medvedev Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri Vladimir Vasilyev Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Rəşid Alimov Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

"LUKOYL" neft şirkətinin prezidenti Vahid Ələkbərov Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Qafqaz Xalqları Ali Dini Şurasının sədri Şeyxülislam Allahşükür Paşazadə, Şuranın üzvləri - Şimali Qafqaz Müsəlmanları Əlaqələndirmə Şurasının sədri, Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının müftisi İsmayıl Berdiyev, Rusiya Federasiyası Çeçenistan Respublikasının müftisi Salex Mejiyev, Rusiya Federasiyası Dağıstan Respublikasının müftisi Əhməd Abdullayev, Rusiya Federasiyası Kabardin-Balkar Respublikasının müftisi Həzrətəli Dzasejev, Rusiya Federasiyası Şimali Osetiya (Alaniya) Respublikasının müftisi Hacımurad Qatsalov, Rusiya Federasiyası Kalmıkiya Respublikasının müftisi Soltanəhməd Karolayev, Rusiya Federasiyası Adıgey və Krasnodar Respublikasının müftisi Askarbiy Kardanov, Bakı və Azərbaycan arxiyepiskopu Aleksandr, Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri Melih Yevdayev, Azərbaycandakı Roma Katolik Kilsəsinin yepiskopu Vladimir Fekete, Azərbaycandakı Alban-udi xristian icmasının sədri Robert Mobili Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suver Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

Rusiyanın Stavropol diyarının dördüncü çağırış Dumasının deputatı, "SRV" hüquq agentliyi" ASC-nin baş direktoru Roman Saviçev Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

Rusiya Notariuslar Assosiasiyasının sədri, professor Natiq Ağamirov Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

Almaniyadan "S.A.T. Security and Transport" şirkətinin rəhbəri Konrad Szorq Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

Moskva Polad və Xəlitələr İnstitutu Milli Texnoloji Tədqiqatlar Universitetinin rektoru Alevtina Çernikova Prezident İlham Əliyevə təbrik məktubu göndərib.

Prezident İlham Əliyev bir sıra birinci instansiya məhkəmələri sədrlərinin və Bakı Ağır Cinayətlər Məhkəməsi sədrinin müavininin təyin edilməsi haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev Şükür Fərəməz oğlu Babayevin Naxçıvan Muxtar Respublikasının Culfa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev Gülağa Bayram oğlu İslamovun Bakı şəhəri Xəzər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.




## AZƏRBAYCAN TƏLƏBƏLƏRİNİN II QURULTAYI KEÇİRİLİB

Dekabrın 21-də Təhsil, Gənclər və İdman nazirliklərinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində Azərbaycan tələbələrinin II qurultayı keçirilib. Qurultayın keçirilməsi Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı"nda əksini tapıb. AZƏRTAC xəbər verir ki, əvvəlcə qurultay iştirakçıları...

Bax səh. 3

## NOBEL QARDAŞLARININ AZƏRBAYCANDAKI FƏALİYYƏTİNDƏN BƏHS EDƏN "MİRAS" BƏDİİ-SƏNƏDLİ FİLMİNİN TƏQDİMATI OLUB

Qafqaz-XIX əsrin sonu. İsveçli sahibkar və kimyaçı Robert Nobel Bakıya gəlir. Burada o, heç kəsin gözləmədiyi dəyərli sərvəti - "qara qızıl"ı kəşf edir. Ancaq onun işinə əngəl olan nəhəng bir rəqib var - Con Rokfellerin "Standart Oil" şirkəti. Bakı nefti uğurunda mübarizə dünyanın diqqət mərkəzinə çevrilir. Bu mübarizədə qalib gəlmək üçün Nobel qardaşları bütün səylərini birləşdirməlidir... Bu epizodlar Bakı Media Mərkəzinin ekranlaşdırdığı, Nobel qardaşlarının Azərbaycandakı fəaliyyətindən bəhs edən "Miras" adlı bədii-sənədli filmdə yer alır. AZƏRTAC xəbər verir ki, filmin dekabrın 21-də Nizami Kino Mərkəzində keçirilən təqdimat mərasimində dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, elm və mədəniyyət xadimləri, media təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər...

Bax səh. 2



## MİLLİ KİTABXANADA MİR CƏLAL PAŞAYEVİN "ƏDƏBİ TƏNQİD" VƏ "PUBLİSİSTİKA" KİTABLARININ TƏQDİMATI OLUB

Dekabrın 21-də Mirzə Fətəli Axundzadə adına Milli Kitabxanasında görkəmli yazıçı və böyük ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin "Ədəbi tənqid (1931-1974)" və "Publisistika (1926-1977)" kitablarının...

Bax səh. 3

### ADU-da Hüseyn Cavidin əsərlərinin özbəkcə nəşrinin təqdimatı olub

Dekabrın 21-də Azərbaycan Dillər Universitetində (ADU) böyük şair və dramaturq Hüseyn Cavidin əsərlərinin özbəkcə nəşrinin təqdimatı olub. AZƏRTAC xəbər verir ki...



Bax səh. 7

### YAP Nəsimi rayon təşkilatında ilin yekunları müzakirə olunub

Dekabrın 21-də Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı ilin yekunlarına həsr olunmuş konfrans keçirib. AZƏRTAC xəbər verir ki, YAP Nəsimi rayon təşkilatının sədri...



Bax səh. 7

### İnsanların sağlamlığı dövlətimiz üçün prioritet məsələdir

...Hamıya yaxşı məlumdur ki, Azərbaycanın adı hazırda dünyanın inkişaf etmiş bir sıra dövlətləri ilə yanaşı çəkilir. Ölkəmizin beynəlxalq aləmdə islahatçı ölkə kimi...



Bax səh. 5

# Prezident İlham Əliyev Heydər Əliyev adına neft emalı zavodunda bitum qurğusunun və maye qazdoldurma məntəqəsinin açılışında iştirak edib



Heydər Əliyev adına neft emalı zavodunda aparılan yenidənqurma və modernləşdirmə layihəsinin birinci mərhələsi çərçivəsində inşa edilən yeni bitum qurğusunun və maye qazdoldurma məntəqəsinin dekabrın 21-də açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlət Neft Şirkətinin - SOCAR-ın prezidenti Rövnəq Abdullayev görülən işlərlə bağlı dövlətimizin başçısı İlham Əliyevə məlumat verib.

Bildirilib ki, bitum qurğusu istismara verildikdən sonra burada illik istehsal 250 min tondan 400 min tona çatdırılacaq. Bu həcm ölkədaxili tələbatın təminatı üçün nəzərdə tutulur. Bu qurğuda "PEN 40-60" markalı yüksək keyfiyyətli bitum istehsal ediləcək. Növbəti mərhələlərdə AVRO-5 standartına cavab verən dizel və benzin yanacağının istehsalı nəzərdə tutulur və artıq bu istiqamətlərdə də işlər sürətlə davam etdirilir.



Heydər Əliyev adına neft emalı zavodunda yenidənqurma işlərinin aparılması, həmçinin keçmiş "Azərneftyağ" neft emalı zavodunun ərazisinin mərhələli şəkildə boşaldılaraq, "Ağ şəhər" layihəsinə təhvil verilməsi nəzərdə tutulduğundan, yeni bitum istehsalı qurğusunun tikintisi zəruri idi. Bitum qurğusu 7,7 hektar ərazini əhatə edir. Qurğunun tikintisi zamanı 150 min kubmetrə yaxın torpaq işləri görülüb, 650 tondan çox metal konstruksiyadan, 530 tondan çox borudan istifadə olunub. 2016-cı ildə Avstriyanın "Poerner" şirkəti ilə yeni bitum qurğusunun inşası üzrə detallı layihələndirmə, satınalma və tikintinin idarə edilməsi müqaviləsi imzalanıb. 2017-ci ilin aprel ayından tikintinin podratçısı "Azfen" şirkəti tərəfindən qurğunun inşasına başlanılıb. Tikinti prosesinə 400 yerli işçi və mütəxəssis cəlb olunub. Layihə qrafikə uyğun başa çatdırılıb.



Maye qazdoldurma stansiyası 7 avtoçənə və 5 çən vaqona yükləmə qolundan ibarətdir. Bu məntəqədən il ərzində 180 min ton propan-propilen, 100 min ton mayeləşmiş qazın avtoçən və dəmir yolu, 178 min ton butan-butilen fraksiyasının isə boru xətti, lazım olduğu təqdirdə avtoçən və ya dəmir yolu ilə nəqli nəzərdə tutulub. Propan-propilen və butan-butilen fraksiyaları "Azərikimya" İstehsalat Birliyinin müəssisələrində xammal kimi işlənəcək, əmtəə məhsulu kimi isə məişətdə və nəqliyyat vasitələrində istifadəsi üçün satışa çıxarılacaq.

Prezident İlham Əliyevə Heydər Əliyev adına neft emalı zavodunda aparılan yenidənqurma və modernləşdirmə layihəsi barədə məlumat verilib. Ulu öndərin adını daşıyan neft emalı zavodunun modernləşdirmə layihəsi tarixi əhəmiyyətə malikdir. Layihə tamamlandıqdan sonra bu zavod ölkəmizi yüksək keyfiyyətli yanacaqla təmin edəcək, Azərbaycanın ixrac potensialını artıracaq və ölkəmizin regiondakı mövqeyinin daha da möhkəmlənməsinə xidmət göstərəcək. Artıq bu mühüm və tarixi layihənin ilkin mərhələsi tamamlanıb. Modernləşdirmə layihəsinin yekunlaşan birinci mərhələsi üç əsas hissədən ibarətdir. Bu hissələrə yeni bitum qurğusu ilə yanaşı, maye qazdoldurma stansiyası və sonrakı mərhələlərdə tikilməsi nəzərdə tutulan qurğuların yerləşəcəyi ərazilərdə söküntü və təmizləmə işlərinin aparılaraq inşaat üçün hazırlanması daxildir.

Sonrakı mərhələlərdə tikilməsi nəzərdə tutulan 8 əsas qurğunun yerinin köhnə qurğulardan təmizlənməsi, modernləşdirmənin ümumi gedişatı üçün mühüm məsələ olan torpaq tədqiqat işlərinin görülməsi və ərazinin tikinti-quraşdırma üçün hazırlanması da artıq öz həllini tapıb.

Heydər Əliyev adına neft emalı zavodunda yenidənqurma işləri 3 mərhələdə icra olunur. Layihənin 2020-ci ilin sonunadək planlaşdırılan ikinci mərhələsində AVRO-5 keyfiyyət standartına cavab verən dizel yanacağının alınması, 2021-ci ilin birinci yarısına nəzərdə tutulan üçüncü mərhələdə isə eyni keyfiyyət standartına cavab verən A-92, 95 və 98 benzin məhsullarının istehsalı üçün müvafiq yeni qurğuların inşası həyata keçiriləcək. Aparılacaq işlər zavodun illik emal gücünü 7,5 milyon tona çatdırmaqla "Azərikimya" İstehsalat Birliyinin xammalla təchizatının sabit şəkildə təmin edilməsinə imkan verəcək. Zavodda aparılan yenidənqurma işləri daxili bazarın yüksək keyfiyyətli yanacağa olan tələbatını tam ödəyəcək, bununla yanaşı, Bakıda karbon emissiyasının miqdarının azalmasına, ekoloji vəziyyətin yaxşılaşdırılmasına mühüm töhfə verəcək.

Prezident İlham Əliyev yeni bitum qurğusunu işə salıb.

Yeni qurğu enerjiyə daha çox qənaət etməklə, ekoloji durumun yaxşılaşdırılmasına, zavodun istismar xərclərinin optimallaşdırılmasına mühüm töhfə verəcək. Bu qurğunun istismara verilməsi nəticəsində əsasən yol inşaatında istifadə olunan asfalt-bitum maddəsinin keyfiyyəti yüksələcək. Asfalt örtüyünün mühüm tərkib hissəsi olan bitum dünyada həm də boya və mürəkkəb istehsalında, kabel, boru, dam və digər səthlərin izolyasiya və germetikliyinin təmin edilməsində, müxtəlif inşaat işlərində istifadə olunur.

# Binəqədi Rayon Məhkəməsinin yeni inzibati binasının açılışı olub

## *Prezident İlham Əliyev açılışda iştirak edib*



Dekabrın 21-də Binəqədi Rayon Məhkəməsinin yeni inzibati binasının açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Ədliyyə naziri Fikrət Məmmədov dövlətimizin başçısına Azərbaycan Hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi və Ədliyyə Nazirliyinin həyata keçirdiyi "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində istifadəyə verilən və tikintisi aparılan müasir məhkəmə bina və kompleksləri barədə məlumat verib.

Prezident İlham Əliyev binanın rəmzi açılışını bildirən lenti kəsib.

Son illərdə ölkəmizdə 16 yeni müasir məhkəmə binası tikilib, beşinin inşası isə davam etdirilir. İndiyədək Prezident İlham Əliyev paytaxtın Sabunçu, Yasamal, Nərimanov, habelə Şəki, Oğuz rayon məhkəmələri binalarının açılışında iştirak edib, İmişli rayon məhkəməsində yaradılan şəraitlə tanış olub.





Dövlət büdcəsinin vəsaiti hesabına tikilən Binəqədi Rayon Məhkəməsinin yeni binasının inşası da müasir standartlara uyğun və yüksək keyfiyyətlə aparılıb. BMT-nin Əlillərin Hüquqları Haqqında Konvensiyasına uyğun olaraq binada əlillərin sərbəst hərəkəti üçün də bütün şərait var. Binəqədi Rayon Məhkəməsi təxminən 265 minə yaxın əhaliyə xidmət edir. Burada 80 nəfərdən çox, o cümlədən 19 hakim, 60 nəfər məhkəmə aparatı işçisi çalışacaq. Binada ümumilikdə 12 məhkəmə iclas zalı fəaliyyət göstərir. Azərbaycan Prezidentinin "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında Sərəncamının icrası çərçivəsində burada "elektron məhkəmə" və "elektron icra" informasiya sistemlərinin tətbiq olunması üçün bütün zəruri infrastruktur yaradılıb və bina müasir İKT avadanlığı ilə təchiz olunub. Məhkəmə zallarında proseslərin daha dəqiq və sürətlə protokollaşdırılmasına xidmət edən, audio-video yazılışları aparan "Femida" sistemi, videokonfransların, təqdimatların keçirilməsi, elektron sənəd dövriyyəsi və məhkəmə işlərinin idarəetmə sistemi üçün qurğular quraşdırılıb. Təqsirləndirilən şəxslər zalda beynəlxalq standartlara uyğun xüsusi ayrılan şüşə otaqda saxlanılır. Burada onların vəkillə birbaşa əlaqə saxlamaları üçün müvafiq qurğular var.



Binəqədi Rayon Məhkəməsi də inzibati və ictimai zonalara bölünür. Hər iki zonanın girişi ayrıdır. İnzibati zona hakimlər və məhkəmə işçiləri, ictimai zona isə vətəndaşlar üçündür. İctimai zonada vəkillər, dövlət ittihamçıları, icra məmurları və Ədliyyə Nazirliyinin icra şöbəsinin əməkdaşları üçün otaqlar var. Binada hakimlər və vətəndaşlar arasında qeyri-prosessual münasibətlər məhdudlaşdırılır və onlar yalnız iclas zallarında görüşürlər. Bu isə şəffaflığın təmin edilməsində mühüm amildir. Binada vətəndaşların müraciət imkanlarının asanlaşdırılması və onların məlumatlılığının təmin edilməsi məqsədilə məlumat nöqtələri, habelə müasir elektron informasiya daşıyıcıları, o cümlədən köşklər, lövhələr quraşdırılıb ki, bu da vətəndaşlara məhkəmə prosesləri və onların tarixi, vaxtı, məhkəmə zalı, hakimlər və digər məsələlərlə bağlı informasiyanı rahat əldə etməyə imkan yaradır. Bununla yanaşı, binada arxiv, maddi sübutların saxlanılması, vətəndaşların qəbulu, təqsirləndirilən şəxslərin vəkillə görüşü, dövlət ittihamçıları üçün otaqlar və tibb məntəqəsi mövcuddur. Konfrans zalında həm beynəlxalq, həm də ölkə səviyyəsində tədbirlər keçirmək mümkündür. Həmçinin hakimlərə və məhkəmə işçilərinə Ədliyyə Nazirliyinin iclaslarına, müşavirə və toplantılarına, eləcə də Ali Məhkəmənin Plenumuna birbaşa qoşulmaq imkanı yaradılıb. Zalda tədris kurslarının keçirilməsi üçün də zəruri infrastruktur var. Buradakı kitabxana məhkəmə-hüquq sahəsinə aid ədəbiyyatla, Azərbaycan həqiqətlərini əks etdirən kitablarla zəngindir.

Ədliyyə və məhkəmə sahəsində tətbiq olunan innovasiyalarla tanış olan Prezident İlham Əliyevə notariat hərəkətlərinin rəsmiləşdirilməsində tətbiq olunan rəqəmsal texnologiyalar, o cümlədən notariat ofislərini vahid şəbəkədə birləşdirən "Elektron notariat" informasiya sistemi barədə məlumat verilib. Dövlətimizin başçısının qanunvericilik təşəbbüsü ilə qəbul edilmiş və Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ərəfəsində qüvvəyə minən "Notariat haqqında" Qanuna edilən əsaslı dəyişikliklərin daha müasir texnologiyaların və innovasiyaların tətbiqinə geniş imkan yaratdığı qeyd olunub.

Sonra səyyar notariat çantası, elektron ədliyyə köşkü və mobil notariat qovluğu nümayiş etdirilib.

Bildirilib ki, səyyar xidmətlərə tələbatın artması ilə əlaqədar və əhalinin məmnunluğunun təmin edilməsi üçün müasir avadanlıqla təchiz olunan "Elektron notariat" informasiya sisteminə birbaşa çıxışı olan xüsusi çanta hazırlanıb. Notariuslar həmin çantalarla hər hansı məkana bağlı olmadan fiziki və hüquqi şəxslərə bütün növ notariat hərəkətləri üzrə səyyar xidmət göstərə bilərlər. Eyni zamanda, yeni qanuna əsasən məsafədən xidmətlərin göstərilməsini mümkün edən elektron ədliyyə köşkü də yaradılıb. Belə ki, təxirə salınmadan ədliyyə xidmətlərinə ehtiyac yarandığı yerlərdə, o cümlədən sərhəddə, hava və dəniz limanlarında, dəmir yolu vağzallarında quraşdırılacaq həmin köşklər notariuslarla videoəlaqə vasitəsilə notariat hərəkətinin rəsmiləşdirilməsinə və sənədlərin bilavasitə yerində əldə edilməsinə şərait yaradacaq. Həftənin bütün günləri 24 saat fəaliyyət göstərən bu innovativ qurğudan istifadə edərək borca görə ölkədən çıxışına məhdudiyyət qoyulmuş şəxslər ödənişləri həyata keçirə və məhdudiyyəti avtomatlaşdırılmış qaydada aradan qaldıra bilərlər. Dünya təcrübəsində rast gəlinməyən və Azərbaycan məhsulu olan mobil notariat qovluğunun tətbiqi nəticəsində istənilən şəxs ətrafında olan bütün notariat ofisləri və notariuslar, həmçinin notariat hərəkətlərinin rəsmiləşdirilməsi üçün ödənilməli rüsum və haqqın məbləğləri, tələb olunan sənədlər və notariat hərəkətinin aparılmasında iştirak etməli şəxslər barədə məlumat alacaq. Funksiyanın əsas özəlliyi isə şəxsin iştirakçısı olduğu bütün notariat hərəkətləri ilə bağlı sənədlərin vahid mənbədə - mobil telefonda saxlanılması, istənilən vaxt elektron versiyadan istifadə etməsi, eləcə də sənədin qüvvədən düşməsi barədə məlumatı dərhal almasıdır.

Dövlətimizin başçısına cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il fevralın 10-da imzalanan Sərəncamın icrası üzrə görülən işlər barədə də məlumat verilib, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında tətbiq olunan elektron nəzarət qurğuları, o cümlədən elektron qolbaqlar nümayiş etdirilib. Hazırda bütün ölkə üzrə 460-dan çox məhkuma elektron nəzarət olunur. Sərəncama əsasən ictimai işlərin formal icrasının qarşısının alınması, bu sahədə fəaliyyətin səmərəli təşkili ilə bağlı tədbirlər həyata keçirilir.

Son illərdə Azərbaycanda məhkəmə sistemində tətbiq edilən yeniliklər beynəlxalq aləmdə təqdir olunur. Bununla əlaqədar ötən il Azərbaycan Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" mükafatına layiq görülüb. Bu il isə Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının prezidenti vəzifəsinə seçkilər keçirilib. Seçkilər quruma üzv 47 dövlətin nümayəndəsi tərəfindən gizli səsvermə yolu ilə aparılıb və Avropa Şurası tarixində ilk dəfə olaraq bu vəzifəyə Azərbaycan təmsilçisi seçilib.

Qurumun yeni rəhbəri, hakim Ramin Qurbanov Prezident İlham Əliyev ilə görüşüb.

Qeyd edək ki, Avropa Şurasında belə yüksək vəzifəyə seçkilərdə nailiyyətin əldə edilməsində dövlətimizin başçısının uğurlu xarici siyasəti və ölkədə aparılan mütərəqqi məhkəmə-hüquq islahatları əhəmiyyətli rol oynayıb.

# Nobel qardaşlarının Azərbaycandakı fəaliyyətindən bəhs edən "Miras" bədii-sənədli filminin təqdimatı olub






Qafqaz-XIX əsrin sonu. İsveçli sahibkar və kimyaçı Robert Nobel Bakıya gəlir. Burada o, heç kəsin gözləmədiyi dəyərli sərvəti - "qara qızıl"ı kəşf edir. Ancaq onun işinə əngəl olan nəhəng bir rəqib var - Con Rokfellerin "Standart Oil" şirkəti. Bakı nefti uğurunda mübarizə dünyanın diqqət mərkəzinə çevrilir. Bu mübarizədə qalib gəlmək üçün Nobel qardaşları bütün səylərini birləşdirməlidir...

Bu epizodlar Bakı Media Mərkəzinin ekranlaşdırdığı, Nobel qardaşlarının Azərbaycandakı fəaliyyətindən bəhs edən "Miras" adlı bədii-sənədli filmdə yer alır.

AZƏRTAC xəbər verir ki, filmin dekabrın 21-də Nizami Kino Mərkəzində keçirilən təqdimat mərasimində dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, elm və mədəniyyət xadimləri, media təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

"Nobel Oil" şirkətinin sponsorluğu ilə ərsəyə gələn filmin məqsədi Nobel qardaşlarının Azərbaycandakı fəaliyyətinin həm regionda, həm də dünya neft hasilatının inkişafında tarixi rolu və əhəmiyyətini vurğulamaq, eləcə də Azərbaycanda neft hasilatı tarixinin işıqlandırılması və təbliği işinə töhfə verməkdir.

"Miras" bədii-sənədli filminin prodüseri Orman Əliyev, ssenari müəllifi və quruluşçu rejissoru Zaur Qasımlı, quruluşçu operatoru Vladimir Artemyev, quruluşçu rəssamı isə Şahin Həsənlidir.

Mərasimdə, həmçinin Bakı Media Mərkəzinin redaktoru Müsəllim Həsənovun "Nobellər neft, milyonçular və qoçular şəhərində" adlı kitabının təqdimatı da olub. Bakı, Moskva və Sankt-Peterburq arxivlərində saxlanılan sənədlər, o dövrün mətbuat materialları əsasında yazılan kitab Nobel qardaşlarının Azərbaycandakı fəaliyyətindən bəhs edir.

Film tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

Qeyd edək ki, Bakı Media Mərkəzi Azərbaycanın audiovizual məhsulların istehsalı ilə məşğul olan aparıcı və innovativ media şirkətidir. Mərkəzin son işləri sırasında "Hədəf Bakıdır. Hitler neft uğrunda döyüşü necə uduzdu", "Əbədi ezamiyyət", "Multikulturalizm İli"nə həsr olunmuş "Bir günəş altında", "Son iclas" və digər sənədli filmlər yer alır.

# Azərbaycan tələbələrinin II qurultayı keçirilib








Dekabrın 21-də Təhsil, Gənclər və İdman nazirliklərinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində Azərbaycan tələbələrinin II qurultayı keçirilib.







Qurultayın keçirilməsi Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı”nda əksini tapıb.

AZƏRTAC xəbər verir ki, əvvəlcə qurultay iştirakçıları Fəxri xiyabana gedərək Ümummilli lider Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi anılıb, məzarları üzərinə güllər qoyulub.

Qurultay Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın qurultay iştirakçılarına təbrik məktubunu Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva oxuyub.

Baş nazirin müavini Əli Əhmədov qurultayda çıxış edərək əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasətini hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyini deyib. Əli Əhmədov gənclərin və tələbələrin Azərbaycan əhalisinin əhəmiyyətli hissəsini təşkil etdiyini, onların ölkənin siyasi, iqtisadi, sosial həyatında mühüm rol oynadıqlarını qeyd edib və qurultayın işinə uğurlar arzulayıb.

Təhsil naziri Ceyhun Bayramov ölkəmizdə həyata keçirilən təhsil və gənclər siyasəti barədə ətraflı məlumat verərək tələbə-gənclərin dövlətin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunduğunu bildirib. Nazir “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın qəbul edilməsindən ötən 5 il ərzində ali təhsil sisteminin təkmilləşdirildiyini, universitetlərin kadr potensialı və maddi-texniki bazasının gücləndirildiyini, ali təhsilin əlçatanlığı istiqamətində mühüm addımların atıldığını qeyd edib. Vurğulayıb ki, ötən dövr ərzində Azərbaycan Avropa Ali Təhsil Məkanının bərabərhüquqlu üzvünə çevrilib, ali təhsil müəssisələrinin fəaliyyəti Bolonya prosesinin tələblərinə uyğunlaşdırılıb.



Nazir bildirib ki, bu il qəbul imtahanlarında rekord sayda - 41 minə yaxın gənc tələbə adını qazanıb, 3127 nəfər 600 baldan yüksək nəticə göstərib, 29 abituriyent 700 bal toplayıb. Beş yüzdən yuxarı bal toplayan 2090 gənc müəllimlik ixtisasını seçib ki, bu da gənclər arasında müəllim peşəsinə marağın artmasını sübut edir. Təhsilin əlçatanlığının təmin edilməsi məqsədilə 2019-2020-ci tədris ilində ali təhsil müəssisələrində dövlət sifarişli yerlərin əhəmiyyətli şəkildə artırılması nəzərdə tutulub.

Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə Bakı şəhərində 800 yerlik ən müasir infrastruktura malik tələbə yataqxana kompleksinin inşasının başa çatdırıldığını deyən Ceyhun Bayramov bildirib ki, paytaxtda və regionlarda yeni yataqxana komplekslərinin inşası, Sumqayıt və Gəncə şəhərlərində mövcud yataqxana binalarının əsaslı təmiri və yenidən qurulması tələbələrin təhsil imkanlarının əhəmiyyətli şəkildə genişləndirilməsinə imkan verəcək.

Təhsil naziri “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində 3558 gəncin dünyanın ən nüfuzlu universitetlərində təhsil aldığını deyib və bildirib ki, hazırda Azərbaycanın ali məktəblərində 76 ölkədən 6 mindən çox əcnəbi tələbə təhsil alır. Ceyhun Bayramov ölkə Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş “2019-2023-cü illər üçün ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın ali təhsilin keyfiyyətinin yüksəldilməsində, ikili diplom proqramlarının genişləndirilməsində və xaricdə doktorant hazırlığında mühüm rol oynayacağına əminliyini ifadə edib.

Qurultayda çıxış edən Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri, Milli Məclisin deputatı Şahin İsmayılov tələbə-gənclərlə bağlı həyata keçirilən layihələr, görülən işlər barədə məlumat verib. O bildirib ki, Ulu öndər Heydər Əliyev hər zaman gənclərə xüsusi diqqət və qayğı ilə yanaşırdı. Dahi rəhbər çıxışlarında gəncliyin ölkə və xalq üçün hər şeydən qiymətli olduğunu qeyd edirdi. Bu gün dövlətimizin başçısı İlham Əliyev gənclər siyasətini uğurla davam etdirir.

Daha sonra Azərbaycan tələbələri haqqında hazırlanmış film nümayiş olunub.

Qurultay tələbələrin çıxışları ilə davam edib. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı Elnur Məmmədli, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi Lalə Novruzova, “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində Böyük Britaniyanın Liverpul Universitetində təhsil almış Ümid Mehdiyev, Bakı Dövlət Universitetinin tələbəsi, sərbəst güləş üzrə üçqat dünya çempionu Hacı Əliyev, Azərbaycan Dövlət Pedaqoji Kollecinin tələbəsi Əfsanə Abdullayeva, Naxçıvan Dövlət Universitetinin tələbəsi Kərim Nəcəfov, Azərbaycan Dillər Universitetinin tələbəsi Ayşən Məmmədova, Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Amin Fərəczadə, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Akademiyasının tələbəsi Seyidəli Abbasov öz uğur hekayələrini bölüşüblər.

Tədbirin sonunda Azərbaycan tələbələrinin II qurultayının qətnaməsi qəbul olunub.

Qurultay tələbələr tərəfindən hazırlanmış konsert proqramı ilə başa çatıb.

Qeyd edək ki, hazırda Azərbaycanın ali məktəblərində bakalavr səviyyəsində 157 min 662, magistratura səviyyəsində 13 min 442, orta ixtisas təhsili müəssisələrində 51 min 819 tələbə təhsil alır.

# Azərbaycan tələbələrinin II qurultayının iştirakçılarına

**Hörmətli qurultay iştirakçıları!**

**Əziz tələbələr!**

Sizi - Azərbaycan tələbələrinin II qurultayının iştirakçılarını səmimi qəlbdən salamlayır, sizin simanızda ölkəmizin bütün tələbə gənclərinə ən xoş arzularımı yetirir və qurultayın işinə uğurlar arzulayıram.

Bugünkü ali məclisinizin “Azərbaycan Xalq Cümhuriyyəti İli”nə təsadüf etməsi əlamətdar haldır. Ölkəmizdə ana dilində tədrisə başlanılması, ilk universitetin yaradılması və azərbaycanlı gənclərin xaricdə ali təhsil almağa göndərilməsinin təməli Xalq Cümhuriyyəti dövründə qoyulmuş, bu ənənə xalqımızın Ümummilli lideri Heydər Əliyev tərəfindən davam etdirilmişdir. Məhz Ulu öndərin təşəbbüsü ilə azərbaycanlı gənclər keçmiş Sovetlər Birliyinin məşhur ali məktəblərində təhsil alaraq vətənimizin yüksəlişi naminə cəmiyyət həyatının ən müxtəlif sahələrində əzmkarlıqla çalışmışlar.

Müstəqil Azərbaycanda milli təhsil quruculuğu sahəsində əhəmiyyətli addımlar atılmış, gəncliyin inkişafı və təhsili ilə bağlı bir sıra dövlət proqramları qəbul edilmişdir. Ümidvaram ki, həmin proqramlar müvəffəqiyyətlə həyata keçiriləcək, gənclərimiz ən yeni bilik və texnologiyaları mənimsəyərək yüksək hazırlıqlı kadrlar kimi ictimai-siyasi, iqtisadi və mədəni həyatda təqdirəlayiq fəaliyyətləri ilə ölkəmizin tərəqqisi naminə öz töhfələrini verəcəklər.

**Əziz gənclər!**

Siz çiçəklənən gözəl bir ölkədə yaşayırsınız. Hamılıqla uğurlarınıza ürəkdən sevinirik. Zəngin bilikli və dərin mənəviyyatlı vətənpərvər gənclik olaraq formalaşmağınız gələcəyə inamımızı artırır, qəlbimizi qürur hissi ilə doldurur. Sizinlə fəxr edirik.

Azərbaycanın gələcəyi məhz sizlərin bilik səviyyənizdən və müasir innovativ texnologiyalara yiyələnmək bacarığınızdan asılı olacaqdır. Sizin dövlətimizin və xalqımızın etimadını layiqincə doğruldacağınıza inanıram.

**Dərin hörmət və ehtiramla,**

**Mehriban Əliyeva**

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti**

# Milli Kitabxanada Mir Cəlal Paşayevin “Ədəbi tənqid” və “Publisistika” kitablarının təqdimatı olub



Dekabrın 21-də Mirzə Fətəli Axundzadə adına Milli Kitabxanasında görkəmli yazıçı və böyük ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin “Ədəbi tənqid (1931-1974)” və “Publisistika (1926-1977)” kitablarının təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, hər iki kitab Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanası tərəfindən nəşr olunub.

Tədbiri mədəniyyət naziri Əbülfəs Qarayev açaraq bu il ərzində ölkəmizdə, bölgələrdə Mir Cəlal Paşayevin anadan olmasının 110 illiyi münasibətilə silsilə tədbirlərin keçirildiyini bildirib: **“Görkəmli ədib və alimlərimizin yubileylərini qeyd etməklə bir daha şahidi oluruq ki, Azərbaycan ədəbiyyatı, mədəniyyəti nə qədər zəngin və qüdrətlidir. Bu xəzinənin gələcək nəsillərə ötürülməsinin böyük əhəmiyyəti var. Biz həmişə öz ənənələrimizə sadiq qalaraq görkəmli şəxsiyyətlərimizin fəaliyyətini dönə-dönə ictimaiyyətə təqdim etməliyik”.**

Yazıçının 100 illiyi ilə bağlı UNESCO-nun baş qərargahında keçirilən möhtəşəm tədbiri xatırladan nazir deyib ki, həmin tədbir nəinki Mir Cəlal Paşayevin yaradıcılığının, eyni zamanda, Azərbaycan ədəbiyyatının beynəlxalq aləmdə təbliğinə töhfə olub: **“Onun əsərlərini oxuyarkən gəldiyim qənaət budur ki, yazıçı mürəkkəb siyasi-ideoloji bir dövrdə yaşasa da, heç vaxt azərbaycançılıqdan, xalqımızın mənəvi aləmindən uzaq düşməyib. Yazıçının əsərlərində düzgünlük, sadəlik, xalqı sevmək, etibar, inam və digər yüksək insani keyfiyyətlər ön plandadır. Buna görə də müəllifin zəngin bədii yaradıcılığı və elmi tədqiqatları hər zaman aktuallığını qoruyub saxlayacaq, yeni nəsillərin mənəvi zənginliyində mühüm rol oynayacaq”.**

Nazir qeyd edib ki, təqdimatı keçirilən kitablar çox zəngin məlumatları özündə əks etdirir: “Publisistika” məqalələr toplusunda ədibin 1926-1977-ci illərdə qələmə aldığı məqalələri, “Ədəbi tənqid” kitabında isə alimin 1931-1974-cü illəri əhatə edən araşdırmaları yer alıb.

Təqdimat mərasimində Xalq yazıçısı Elçin Əfəndiyev çıxış edərək Mir Cəlal Paşayevin zəngin yaradıcılığından, elmi və pedaqoji fəaliyyətindən və nəcib insani keyfiyyətlərindən söhbət açıb. Bildirib ki, böyük ədib və alim, görkəmli pedaqoq Mir Cəlal Paşayev müdrik insan, nəcib şəxsiyyət idi. Yazıçının müxtəlif janrlarda qələmə aldığı əsərləri həm mövzu zənginliyi, həm də dil və üslub xüsusiyyətləri ilə diqqəti cəlb edir, böyük maraq doğurur.

Çap olunan kitabların elmi məsləhətçisi, akademik Nizami Cəfərov bildirib ki, Mir Cəlal müəllim sovet rejimi dövründə yaşayıb yaratmış elə müdrik müəlliflər sırasına daxildir ki, bu gün onun ədəbi-tənqidi, publisistik yazılarının altından yazıldığı tarixi götürsək, həmin materialların elə bu gün yazıldığını zənn etmək olar. Bu səbəbdən də kitablarda ədibin bir sözünə də toxunulmayıb və bütün yazılar orijinalda olduğu kimi verilib.

Xalq şairi Nəriman Həsənzadə Mir Cəlal Paşayevlə bağlı xatirələrini bölüşüb. Bildirib ki, o, hər zaman oxucularının yanında idi. Bütöv şəxsiyyəti ilə Mir Cəlal müəllim özü bir əsər idi.

“Ədəbi tənqid” kitabının “Ön söz” müəllifi professor Asif Rüstəmli diqqətə çatdırıb ki, milli ədəbiyyatımızın saflığı, duruluğu Mir Cəlal müəllimi həmişə düşündürüb: **“Onun bədii yaradıcılığa yeni gələn, gələcəyinə ümidlər bəslənilən gənclərin əsərlərinə tənqidi münasibəti də sabit və birmənalı olaraq xeyirxahlıq səciyyəsi daşıyırdı. Mir Cəlal müəllimin çoxşaxəli yaradıcılığında, həyat yolunda mənəvi bütövlük var. Bu mənəviyyat məcrasında görkəmli müəllim, alim, yazıçı taleyi görünməkdədir”.**

Mir Cəlalın “Publisistika” kitabının “Ön söz” müəllifi Elnur İmanbəyli çıxışında nəşrin gənc tədqiqatçılar üçün dəyərli mənbə olacağını vurğulayıb, məqalələrdəki fəlsəfi düşüncələrin əhəmiyyətini qeyd edib.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov kitablarda nəşr olunan materialların Milli Kitabxananın arxiv fondundan, dövri mətbu nəşrlərdən, Salman Mümtaz adına Dövlət Mədəniyyət və İncəsənət Arxivinin fondlarından toplandığını qeyd edib.

Tədbirdə professorlar Şirindil Alışanlı, Buludxan Xəlilov və başqaları çıxış edərək kitabın elmi məziyyətlərindən, görkəmli yazıçının alim və müəllim kimi şəxsi keyfiyyətlərindən, yaradıcılığının özünəməxsusluğundan danışıblar.

Bildirilib ki, Mir Cəlalın ədəbi-tənqidi və publisistik məqalələrinin ayrıca kitab halında indiyədək nəşr olunmadığını nəzərə alsaq, bu nəşrlər görkəmli alimin bu mövzuda oxucular və mütəxəssislərlə ilk görüşü hesab oluna bilər.

Mir Cəlalın ailəsi adından çıxış edən oğlu, “ADA” Universitetinin rektoru, professor Hafiz Paşayev tədbirin təşkilində zəhməti olan hər kəsə təşəkkürünü bildirib. O, növbəti tədbirlərdən birinin məhz “Mir Cəlal və müasirləri” mövzusuna həsr olunmasını təklif edib. Diqqətə çatdırıb ki, ədəbiyyatımızda layiqli yeri olan insanlar çoxdur və onlar haqqında bu cür tədbirlər təşkil edilməlidir.

Atası ilə bağlı xatirələri bölüşən Hafiz Paşayev ixtisasca ədəbiyyatçı olmasa da, Mir Cəlalın bədii irsi sayəsində ədəbiyyata böyük maraq göstərdiyini deyib. Kitabların gənclərə tariximizin öyrənilməsində yardımçı olacağına ümid etdiyini diqqətə çatdırıb: **“Mir Cəlalı çox zaman işıqlı adam adlandırırlar. Çox istərdim ki, onun yaradıcılığından, yaratdığı əsərlərdən gənc nəsil də bəhrələnsin və ölkəmizin işıqlı gələcəyinə öz töhfələrini versinlər”.**

Qeyd edək ki, yeni nəşrlərin layihə rəhbəri mədəniyyət naziri Əbülfəs Qarayev, elmi məsləhətçisi, akademik Nizami Cəfərov, tərtibçi və elmi redaktoru, professor Kərim Tahirov, redaktoru, Əməkdar mədəniyyət işçisi Ədibə İsmayılova və filologiya üzrə fəlsəfə doktoru Validə Həsənovadır.

# İlham Əliyev fenomeni - siyasi qətiyyət və müdriklik örnəyi

Artıq 15 ildir ki, müstəqil Azərbaycan dövlətinə Prezident İlham Əliyev rəhbərlik edir. Dünya üçün risklərlə dolu olan bir dövrdə Cənubi Qafqaz kimi mürəkkəb geosiyasi məkanda uğurlu siyasət aparmaq böyük qüdrət tələb edir. Təcrübə göstərir ki, Azərbaycan Prezidenti bu aspektdə olduqca uğurlu lider-rəhbərdir. Çünki keçən müddətdə Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrilib. Hazırda ölkənin beynəlxalq aləmdə nüfuzu yüksəkdir və bu proses durmadan davam edir. Azərbaycanın əməkdaşlıq imkanları günü-gündən daha da genişlənir. Ölkə ciddi beynəlxalq layihələrin həyata keçirilməsində mühüm rol oynayır. Bu istiqamətdə də inkişaf özünü göstərir. Bütövlükdə daxili və xarici siyasətin hər bir sferasında Azərbaycan nailiyyətlər əldə edir. Azərbaycanın təşəbbüsü ilə mədəniyyətlər və sivilizasiyalar arasında qurulan əməkdaşlıq və dialoq konkret məzmun kəsb edib. Məsələyə geniş prizmadan yanaşdıqda, Prezident İlham Əliyevin sistemli, əhatəli və müasir tələblərə tam cavab verən siyasət həyata keçirməklə Azərbaycanı zirvələrdən-zirvələrə, uğurlardan-uğurlara apardığı aydın görünür. Bu məqam üzərində daha geniş dayanmağa ehtiyac duyuruq.

## ULU ÖNDƏRİN SİYASİ VARİSİ: QALİBİYYƏT FORMULU

Qlobal transformasiya proseslərinin mürəkkəb dövründə layiqli siyasi varis olmaq çətin vəzifədir. Xüsusilə Ulu öndər Heydər Əliyev kimi müdrik liderin işlərini ləyaqətlə davam etdirmək böyük bacarıq tələb edir. Prezident İlham Əliyev sübut etdi ki, dahi siyasətçinin və böyük dövlət xadiminin ən layiqli varisidir. Bütün dünyada olduqca intensiv, gərgin, ziddiyyətli və qarışıq proseslərin getdiyi, qlobal trendlərdə qeyri-müəyyənliyin hökm sürdüyü bir mərhələdə müstəqil dövlət quruculuğu kursunu yaradıcı şəkildə inkişaf etdirmək, əlbəttə, tarixi xidmətdir. Azərbaycan xalqı özünü xoşbəxt saya bilər.

Bu, adi söz deyil. Diqqət edək, Cənubi Qafqazda geosiyasi, iqtisadi, hərbi və siyasi vəziyyət riskli məqamlarla doludur. Gürcüstanda və Ermənistanda siyasi hakimiyyət məsələsi hələ tam sabitləşməyib. Ekspertlər qeyd edirlər ki, həmin ölkələrdə hansı siyasətçinin konkret hansı kursu götürəcəyi məlum deyil. Bu baxımdan həmin ölkələrdə siyasi və geosiyasi prosesləri proqnozlaşdırmaqda qeyri-müəyyənlik vardır. Bu da avtomatik olaraq həmin dövlətləri tərəfdaş olaraq elə də etibarlı etmir. Çünki hazırda qlobal dünya siyasətində "sərmayə riskləri" deyilən bir ifadəyə ciddi fikir verilir. Sərmayə riski yüksək olan ölkələrlə işbirliyi səmərə vermir.

Artıq böyük dövlətlər və iri şirkətlər sabitliyin, dayanıqlı inkişafın və konkret fəaliyyət kursunun mövcud olduğu, riskləri olmayan ölkələrlə əməkdaşlığa üstünlük verirlər. Bu baxımdan statistik məlumatlar göstərir ki, dünyanın bütün dövlətləri Cənubi Qafqazda tərəfdaş kimi ilk olaraq Azərbaycanı seçirlər. İmzalanan sazişlər, reallaşan layihələr, logistik-tranzit göstəricilər, əməkdaşlıq formatlarının tətbiqi, xarici siyasətdə sabit mövqe və s. bu kimi parametrlərə görə Azərbaycan regionun həqiqi lideridir.

Bəs bu statusu Azərbaycan necə qazana bilib? Ekspertlərin cavabı konkretdir: Azərbaycan belə uğurları Ulu öndər Heydər Əliyevin layiqli siyasi varisi Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş, müasir tələblərə tam cavab verən, milli dövlətçiliyə daim üstünlük verən inkişaf kursunun sayəsində əldə edib. Faktlar da bunu tam təsdiq edir. Onların bir qisminə nəzər salaq.

Əvvəlcə onu vurğulayaq ki, Prezident İlham Əliyevin fəaliyyəti dövründə Azərbaycanda demokratik təsisatlar çox möhkəmləndirilib. O cümlədən siyasi plüralizm, insan hüquq və azadlıqları tam təmin edilib. Ümumi səviyyədə vətəndaş cəmiyyəti institutlarının islahatlarla gücləndirilməsi prosesi düşünülmüş şəkildə və sistemli aparılıb. Bunların sübutu ölkədə 55 siyasi partiya, 3 mindən çox qeyri-hökumət təşkilatı (4 mindən çox qeyri-kommersiya təşkilatı) və 5 mindən artıq kütləvi informasiya vasitələrinin mövcudluğudur.

Bunlardan başqa, Azərbaycanda sıralarında 2 milyona yaxın insanı birləşdirən həmkarlar ittifaqları sərbəst fəaliyyət göstərir. Məlumdur ki, həmkarlar təşkilatları işçilərin hüquqlarını ən şəffaf şəkildə müdafiə edən qurumlardır. Cənubi Qafqazda ən güclü həmkarlar təşkilatı Azərbaycandadır.

Ayrıca vurğulayaq ki, ölkədə vətəndaş cəmiyyəti institutlarının imkanlarının artırılmasına böyük qayğı göstərilir. Məsələn, 2007-ci ildə "Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Konsepsiyası" təsdiq edilib. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası yaradılıb. Vətəndaş cəmiyyəti üçün səciyyəvi olan digər institutlar da inkişafdadır. Bu kontekstdə insan haqlarının qorunması, söz və məlumat azadlığının təmin olunması, demokratik, plüralist mətbuatın formalaşması ilə bağlı atılan addımları qeyd etmək lazımdır. Ölkədə KİV-lərin ümumi sayı 5 mini, internet saytlarının sayı isə 20 mini keçib. Azərbaycan əhalisinin 80 faizi internet istifadəçisidir. 3 milyon insan sosial şəbəkədən istifadə edir. Bu, böyük bir rəqəmdir. Bu o deməkdir ki, Azərbaycan cəmiyyəti kifayət qədər fəaldır, ölkədə baş verən proseslərə reaksiya verə bilir. Belə amillər vətəndaş cəmiyyətinin formalaşmasında mühüm rol oynayır.

Dövlət başçısı reallaşdırdığı ardıcıl, sistemli və düşünülmüş kurs nəticəsində iqtisadi sahədə də böyük nailiyyətlər əldə edib. Artıq Azərbaycanda bazar iqtisadiyyatına keçid prosesi başa çatıb. İndi ÜDM-də özəl sektorun payı 80 faizdən çoxdur. Rəqabət qabiliyyətinə görə Azərbaycan aparıcı mövqelərdən birindədir. Makroiqtisadi sabitlik bərqərar olub. İqtisadiyyatın şaxələndirilməsi istiqamətində səmərəli addımlar atılmaqda davam edir. Regionların sosial-iqtisadi inkişafına dair üç dövlət proqramı icra olunub.

Qeyri-neft sənayesi də ardıcıl şəkildə inkişaf etdirilir. Müasir texnologiyalara əsaslanan minlərlə yeni müəssisə fəaliyyətə başlayıb. Çoxsaylı sənaye parkları və məhəllələri, texnoparklar yaradılıb, zavodlar tikilib. Yeni istehsal sahələri yaradılıb və bir sıra sahələr genişləndirilib. Qeyri-neft sənayesinin ixrac imkanları artırılıb. İnnovativ istehsal inkişaf etdirilir.

Aqrar sektorda da inkişaf göz qabağındadır. 2003-2018-ci illərdə meliorasiya tədbirlərinə ayrılan vəsaitin həcmi 6 dəfə artırılıb. Bu sahəyə əsaslı kapital qoyuluşu 21 dəfə artıb. Ölkədə 4 iri su anbarı (Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay), 4 min kilometr suvarma kanalları, 2,4 min kilometr kollektor-drenaj şəbəkələri tikilib və bərpa olunub, 360 min hektar torpağın su təminatı, 264 min hektar sahədə meliorativ vəziyyət yaxşılaşdırılıb, 219 min hektar yeni suvarılan torpaq sahəsi əkin dövriyyəsinə daxil edilib.




Bütövlükdə götürdükdə, son 15 il ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artıb. Bu müddət ərzində qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı isə 1,7 dəfə artıb. Azərbaycanın valyuta ehtiyatları 46 milyard dollara çatdırılıb. 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulub.

Prezident İlham Əliyevin sosial siyasəti də müsbət aspektdə çox fərqlənir. Prezidentin təşəbbüsü ilə əhalinin sosial müdafiəsini gücləndirmək istiqamətində ciddi tədbirlər həyata keçirilməkdədir. 15 il ərzində ölkədə 1,9 milyon yeni iş yeri açılıb və bu proses sürətlə davam edir. Maaşlar 5 dəfədən, pensiyalar isə 8 dəfədən çox artırılıb. Ötən müddətdə işsizlik səviyyəsi 5 faizə, yoxsulluq isə 49 faizdən 5,4 faizə endirilib. Prezident İlham Əliyevin ölkədə ictimai və sosial xidmətlər sahəsində ciddi institusional islahatlar aparmasını bütün dünya alqışlayır. "ASAN xidmət" mərkəzlərinin yaradılması bu istiqamətdə əsl inqilab hesab olunur. "ASAN xidmət" indi dünyada Azərbaycanın brendi kimi tanınır. Bundan başqa, dövlət başçısı 2018-ci ilin avqustunda əhalinin məşğulluğu, əmək və sosial müdafiəsi ilə bağlı çevik və innovativ xidmətlər göstərilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi"ni (DOST) yaradıb.

Hamı Prezident İlham Əliyevin şəhid ailələri, müharibə veteranları və əlillərə necə yüksək qayğı ilə yanaşdığını çox gözəl bilir. Son 15 il ərzində şəhid ailələrinə və müharibə əlillərinə dövlət hesabına 5500-dən çox fərdi ev və mənzil verilib. Onlar 6 mindən çox minik maşını alıblar. Məcburi köçkünlərin problemlərinin həlli sahəsində genişmiqyaslı işlər görülüb. Yeni salınmış 100-dən artıq qəsəbə və şəhərcikdə 265 min nəfər məskunlaşdırılıb. Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı görülən işləri isə bütün dünya bilir. Bu kənd artıq məşhurdur.

Ölkə rəhbəri İlham Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi proqramlar olduqca böyük səmərə verir. Hazırda Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü Silahlı Qüvvələridir. Bu ordu Prezidentin qarşıya qoyduğu istənilən vəzifəni yerinə yetirməyə qadirdir. 2016-cı ilin Aprel döyüşləri və Naxçıvan əməliyyatı bunu bir daha təsdiq etdi. Təsadüfi deyil ki, Ermənistan Azərbaycan Ordusunun ən müasir silahlarla təmin edilməsindən bərk narahatdır. Ermənistan rəhbərliyi çaşqın halda hətta öz müttəfiqlərini belə ittiham edir, onları Azərbaycanla hərbi əməkdaşlıqda günahlandırır. Ancaq həmin dövlətlər Ermənistana nə qədər yaxın olsalar da, Prezident İlham Əliyevin haqlı mövqeyini dəstəkləyirlər. Onların Azərbaycan dövlətinin başçısı ilə çox yaxşı münasibətləri var, qarşılıqlı etimad mövcuddur və istənilən səviyyədə əməkdaşlıq etməyə hazırdırlar. Siyasi liderin gücü və qüdrəti, inamı və qətiyyəti budur!

Prezident İlham Əliyev enerji-nəqliyyat siyasətini dövlətin milli təhlükəsizliyini maksimum dərəcədə təmin etmək çərçivəsində böyük uğurla inkişaf etdirir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu layihələri bunun konkret təsdiqlərindəndir. Təkcə Cənubi Qafqazın deyil, həm də Avropanın enerji xəritəsində ciddi dəyişiklik edən Cənub Qaz Dəhlizi indi dünya ekspertlərinin analiz etdikləri və proqnozlar verdikləri əsas obyektlərdən biridir. Bu kontekstdə TAP və TANAP bütün dünyanın maraq dairəsindədir. Qeyd edilən faktların fonunda Azərbaycanın mövqeyinin konseptual səviyyədə olduğunu sübut edən məqam 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in ("Əsrin müqaviləsi") müddətinin 2017-ci il sentyabrın 14-də 2050-ci ilə qədər uzadılmasıdır. Bu hadisə rəsmi Bakının sistemli, düşünülmüş və əsaslı fəaliyyət göstərdiyinin çox gözəl nümunəsidir.

Bunlarla yanaşı, dəfələrlə vurğulandığı kimi, Azərbaycan Şərq-Qərb, Şimal-Cənub, Cənub-Qərb nəqliyyat dəhlizlərinin Cənubi Qafqazda qovşağıdır, onların işləməsində çox fəal iştirak etməkdədir. Bu, Prezident İlham Əliyevin birbaşa fəaliyyətinin nəticəsində mümkün olub. Hazırda Azərbaycan Avrasiyada mühüm tranzit və logistika mərkəzlərindən birinə çevrilib.

## XARİCİ SİYASƏT: ÇEVİK VƏ SƏMƏRƏLİ KURSUN BƏHRƏLƏRİ

Bu kimi nailiyyətlərin fonunda Azərbaycan Prezidentinin sivilizasiyalar, mədəniyyətlər və dinlər arasında dialoqun təşkilinə xidmət edən proqramları ayrıca əhəmiyyət daşıyır. Azərbaycan uğurlu mədəniyyət siyasətini də həyata keçirdiyini nümayiş etdirir. Bakı nəinki Azərbaycanda və Cənubi Qafqazda, hətta Avropada və dünyanın başqa məkanlarında bir sıra mədəni layihələrə imza atıb. Heydər Əliyev Fondunun Romada və Parisdə reallaşdırdığı proqramlar haqqında siyasi liderlər ən yüksək səviyyədə xoş fikirlər ifadə edirlər. Bu kimi hallar artıq sistemli xarakter alıb və Azərbaycan mədəniyyətini dünyada tanıtmaqla yanaşı, digər xalqların da mədəni abidələrinin qorunmasında və saxlanılmasında ciddi rol oynayır. Prezident İlham Əliyevin 2016-cı ili Azərbaycanda "Multikulturalizm İli" elan etməsi də təsadüfi deyil. Multikulturalizm ölkəmizdə dövlət siyasəti səviyyəsinə yüksəldilib. İndi dünyada Azərbaycanın multikulturalizm modelindən bəhs edirlər. 2008-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış "Bakı Prosesi" isə mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun interaktiv beynəlxalq platforması kimi öz yerini tam möhkəmlədib.

Təbii ki, Prezident İlham Əliyevin səmərəli fəaliyyətindən danışarkən, xarici siyasət kursunu ayrıca vurğulamaq lazımdır. Çünki dövlət başçısı bu istiqamətdə çox böyük uğurlar əldə edib və bu proses bütün tempi ilə davam edir. Hər şeydən əvvəl, Prezident İlham Əliyevin xarici siyasət kursunun əsasını Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi xarici siyasət xətti təşkil edir. Dövlət başçısı sürətlə dəyişən geosiyasi mühitdə ziddiyyətli və riskli dönəmdə xarici siyasəti səmərəli istiqamətdə inkişaf etdirir. Bunu həm Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı atılan addımlar, həm də xarici siyasətin bütün prioritet istiqamətləri üzrə həyata keçirilən proqramlar sübut edir.

Dövlət başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial mövqeyini belə ifadə edib: **"Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar".** Prezident İlham Əliyev bütün fəaliyyəti boyu bu prinsipin həyata keçirilməsinə var gücü ilə çalışıb və bir sıra uğurlar əldə edib.

Beynəlxalq təşkilatlar Prezident İlham Əliyevin diplomatik müdrikliyi nəticəsində Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən sənədlər qəbul edərək münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində həll edilməsi zərurətini vurğulayıblar. Artıq münaqişənin yalnız bu variantda həll oluna biləcəyi bütün səviyyələrdə vurğulanır. Bu, Ermənistan diplomatiyasına vurulan ağır zərbədir. Bir daha xatırladaq ki, həmin prosesdə Prezident İlham Əliyevin bir neçə il öncə yaratdığı hücum diplomatiyası ciddi rol oynayıb.

Artıq BMT Baş Assambleyası və Təhlükəsizlik Şurasının qətnamələrində, AŞPA-nın, Avropa Parlamentinin qətnamələrində, Avropa İttifaqının "Şərq tərəfdaşlığı" sammitinin bəyannaməsində və Avropa İttifaqı-Azərbaycan "Tərəfdaşlıq Prioritetləri" razılaşmasında, Qoşulmama Hərəkatı dövlət və hökumət başçılarının XVI (Tehran, 2012) və XVII (Marqarita, 2016) sammitlərinin, İƏT-in XI (Seneqal, 2008) və XII (Misir, 2013) zirvə toplantılarının yekun sənədlərində, ECO-nun 13-cü sammitinin (İslamabad, 2017) yekun bəyanatında Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi açıq ifadə edilib. Bunlardan başqa, NATO-nun kommunikelərində Cənubi Qafqazdakı münaqişələrin ölkələrin ərazi bütövlüyü, suverenliyi və Helsinki Yekun Aktına əsaslanaraq həll edilməsi prinsipi öz əksini tapıb.

Prezident İlham Əliyevin birbaşa fəaliyyəti nəticəsində 2011-ci ildə Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib. Azərbaycan Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq əlaqələri qurub. Azərbaycanın uzaq Çinlə də çox yaxşı əməkdaşlığı mövcuddur. Prezident İlham Əliyevin bu ölkəyə səfərləri bu prosesdə həlledici rol oynayıb.

Azərbaycanın dövlət başçısı yeni regional əməkdaşlıq formatlarının təşəbbüskarıdır. Üçtərəfli və dördtərəfli əməkdaşlıq formullarının reallaşdırılması cənab Prezidentin adı ilə bağlıdır. Bunun nəticəsidir ki, Azərbaycan-Türkiyə-Rusiya, Azərbaycan-Türkiyə-İran, Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-Rusiya-İran, Azərbaycan-Türkiyə-Türkmənistan kimi üçtərəfli əməkdaşlıq formatları real səmərəli nəticələr verməkdədir. Azərbaycan Prezidentinin dördtərəfli əməkdaşlıq formulu da konkret bəhrələrini verir.

Bunlardan başqa, dövlət başçısı "Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində beynəlxalq əməkdaşlıq qrupunun yaradılmasının təşəbbüskarıdır. Bu format bütün dünya tərəfindən olduqca səmərəli model kimi qəbul edilir. Şübhə yoxdur ki, yeni əməkdaşlıq formatları çoxlu sayda xalqın rifahının yüksəldilməsində, sülh və barışın təmin edilməsində əvəzedilməz rolunu oynamaqda davam edəcək. Böyük dövlətlərin liderləri bunu açıq ifadə edirlər.

Prezident İlham Əliyevin fəaliyyəti göstərir ki, Azərbaycanda dövlət quruculuğu çox etibarlı əllərdədir. Bütün istiqamətlərdə yüksək səviyyədə nailiyyətlər əldə edilib və Azərbaycan hazırda regionun lider dövləti statusundadır. Ekspertlər Azərbaycanı "sabitlik adası" adlandırırlar. XXI əsr həm də sürətlə dəyişən proseslərlə xarakterizə olunduğundan, insan amilinə diqqət daha böyük qayğı tələb edir. İnsanın inkişafı bütövlükdə dünyanın başlıca probleminə çevrilib. Prezident İlham Əliyevin inkişaf konsepsiyasında insan kapitalının inkişafı başlıca məqsəd olaraq göstərilib. Bu o deməkdir ki, bütün inkişaf konsepsiyasının mərkəzində insan amili dayanır. Bu baxımdan Azərbaycan yüksək hədəfləri olan müstəqil dövlətdir. Onun gələcəyi haqqında olduqca nikbin proqnozlar verilir.

Prezident İlham Əliyev həm də XXI əsrin siyasi liderləri üçün zəruri olan strateji və kreativ təfəkkür sahibidir. Bu yüz ildə millətlərin tərəqqisi həmin keyfiyyətlərə malik liderlərin olmasından çox asılı olacaq. Azərbaycanda dövlət quruculuğu yuxarıda vurğulanan məqamlara görə daha da uğurlu məzmun kəsb edəcək. Ən çətin və mürəkkəb zamanlarda burada sistemli və ardıcıl siyasət həyata keçirilib və bundan sonra da belə olacaq. Azərbaycan xalqı öz liderinə arxadır. Prezident İlham Əliyevin atdığı hər bir addımı cəmiyyət tam olaraq dəstəkləyir. Bu həmrəylik şəraitində dünyanın Azərbaycan adlanan müstəqil dövləti gələcəyə və daha yüksək zirvələrə doğru öz rəhbərinin seçdiyi kursla inamla irəliləməkdədir.

**Newtimes.az**

# Hikmət Babaoğlu: Bəzi qüvvələr informasiya gücü vasitəsilə siyasi təzyiq metodları həyata keçirirlər



Müasir beynəlxalq münasibətlər sistemində informasiya müharibəsi yumşaq güc vasitələri ilə aparılan ən səmərəli müharibə formalarından biridir. Bəzi dövlətlər informasiyanı təzyiq vasitəsi, bəzi dövlətlər şantaj kimi, bəzi dövlətlər isə idarəetmə rıçaqı olaraq görür və öz maraqları üçün bundan istifadə edirlər. Transmilli media da bu qəbildən olan beynəlxalq təzyiq vasitələrindən biridir. Adətən belə media vasitələrində milli dövlətlərin liderləri, onların ailə üzvləri, yaxınları və siyasi komandasına daxil olan şəxslər haqqında əsası olmayan informasiyalar yaymaqla bir növ həmin dövlətə təzyiq etməyə çalışırlar.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib.

Deputat qeyd edib ki, Azərbaycana münasibətdə də belə hallar istisna deyil. Müxtəlif vaxtlarda bu tipli metodlarla bəzi informasiya hücumları təşkil olunub və bu, həmişə Azərbaycanın müstəqil siyasət yürütməsi və milli maraqlarını qətiyyətlə müdafiə etməsi ilə bağlı olub. Elə dekabrın 21-də Böyük Britaniyanın "The Guardian" nəşrində Azərbaycan Respublikası Prezidentinin ailə üzvləri ilə bağlı iftira və böhtan xarakterli materialın verilməsi də növbəti bu cür çirkin addımlardan biridir. Məsələ burasındadır ki, hazırda olduqca mürəkkəb bir tarixi mərhələdən keçirik və yaşadığımız geostrateji rayonda mürəkkəb qlobal siyasi oyunlar davam edir. Belə məsuliyyətli və gərgin dövrdə Azərbaycan Prezidenti daim milli maraqlardan çıxış edərək olduqca mühüm qərarlar qəbul edir və bu qərarlar qonşu, dost ölkələrin maraqları ilə uzlaşır. Hər kəsə bəllidir ki, bu gün Azərbaycanın şimal, cənub və qərb qonşuları Yaxın Şərq məsələsində sinxron hərəkət etməklə qlobal imperializmi böyük və dağıdıcı layihələrində kardinal dəyişikliklərə məcbur edirlər. Bu mühüm siyasi prosesdə Azərbaycan milli və regional maraqlardan çıxış etməklə mənsub olduğumuz siyasi coğrafiyada idarəolunan xaos nəzəriyyəsinin tətbiq olunması siyasətini dəstəkləmədi. Eyni zamanda, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həllində prinsipial mövqe nümayiş etdirməklə nə iqtisadi, nə də kommunikasiya sahəsində üstüörtülü şəkildə işğalçı ölkəni himayə edən güc mərkəzlərinə güzəştə getmədi. Tam əksinə, regionu diplomatiya mərkəzinə çevrilməklə, öz ətrafına strateji tərəfdaşlar toplayaraq yeni siyasi, iqtisadi reallıqlar yaratmaqla Ermənistanı küncə sıxışdırır. Bütün bunların hamısı Azərbaycanın regionun ən müstəqil siyasi aktoru olduğunu bir daha sübut edir.

Deputatın fikrincə, belə mövqe bəzi qlobal güc mərkəzlərini narahat edir. Ona görə də bu cür mərkəzlər tərəfindən informasiya gücü vasitəsilə siyasi təzyiq metodları həyata keçirilir ki, bu da ölkəmizə münasibətdə əsla təsirli ola bilməz. Çünki dərc edilənlər yalan və uydurmalara əsaslanır və konkret çirkin məqsədlərə hesablanıb.

# Tural Gəncəliyev: Dağlıq Qarabağın Azərbaycan icmasının legitim hüquqları bərpa olunmadan münaqişənin ədalətli həlli mümkün deyil




Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində mahiyyət etibarilə Serj Sarkisyan rejiminin davamı olan kriminal xunta yaradılıb. Orada yaşayan erməni əhalisi, yəni Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icması qondarma xunta rejiminin işğalı altındadır, onlar total nəzarət altında saxlanılır və bütün hüquqlardan məhrum ediliblər.

AZƏRTAC xəbər verir ki, bu sözləri mətbuata açıqlamasında "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədri Tural Gəncəliyev bildirib.

O deyib: **"Ermənistan əhalisi bu ilin aprelində meydana çıxan kütləvi etiraz aksiyaları vasitəsilə Sarkisyan rejimini hakimiyyətdən saldı. Dağlıq Qarabağda baş verən son hadisələr onu göstərir ki, əhali bu qondarma kriminal rejimin mövcudluğundan bezmişdir.**

**Dağlıq Qarabağın Azərbaycanlı icmasının mövcudluğunu belə inkar edən qondarma rejimin nümayəndəsi David Babayana xatırlatmaq istərdim ki, danışıqlar prosesində Ermənistan və Azərbaycan münaqişə tərəfləri, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmaları isə maraqlı tərəflər kimi müəyyən olunublar. Dağlıq Qarabağın Azərbaycan icmasının legitim və ayrılmaz hüquqları bərpa olunmadan, o cümlədən onların öz doğma torpaqlarına qayıtması təmin olunmadan münaqişənin ədalətli və davamlı həlli mümkün deyildir.**

**Serj Sarkisyan rejimi hər bir vəchlə iki icma arasında dialoqun yaradılmasına maneə olurdu və imkan vermirdi. Hesab edirik ki, bərabərhüquqlu tərəflər olan bu icmalar arasında Azərbaycanın sərhədləri daxilində sülh şəraitində gələcək birgə yaşayış təşviq olunmalıdır".**

# Prezident İlham Əliyev dövlətimizi və xalqımızı xoş gələcəyə aparan liderdir



İradə HÜSEYNOVA,
YAP Siyasi Şurasının üzvü, professor

XX əsrin axırlarında yenidən müstəqillik qazanan Azərbaycan Respublikasının mövcudluğu və bu gün dünyanın sürətlə inkişaf edən dövlətlərindən birinə çevrilməsi xalqın haqlı olaraq Ümummilli lider hesab etdiyi Heydər Əliyevin tarixi və misilsiz fəaliyyətinin nəticəsidir.

Müasir Azərbaycan tarixində açılan yeni səhifələrdən biri 1993-cü ildə Ulu öndər Heydər Əliyevin ölkəmizə ikinci dəfə siyasi rəhbərliyə qayıdışı ilə başladı. Bu, eyni zamanda Azərbaycanın siyasi inkişaf mərhələsində yeni eranın - Heydər Əliyev erasının başlanması demək idi.

1993-cü ilin iyununda xalqın təkidi ilə Naxçıvandan Bakıya gələn dahi insan və böyük şəxsiyyət Heydər Əliyev dərhal yaranmış böhranlı durumu, kəskin ictimai-siyasi vəziyyəti kökündən dəyişməyə nail oldu. Azərbaycanın dünyanın siyasi xəritəsindən bir dövlət kimi silinməkdən xilas olması Ümummilli liderin müasir Azərbaycanın memarı kimi cahanşümul fəaliyyətinin bariz nəticəsi idi.

Dahi rəhbər Heydər Əliyevin çağdaş tariximizə Milli qurtuluş günü kimi daxil olmuş 15 iyun 1993-cü ildə Azərbaycan Respublikası Milli Məclisinin Sədri seçilməsi ilə respublikada demokratiyanın, qanunçuluğun, hüquqi dövlət quruculuğunun bünövrəsi qoyuldu. Ulu öndər Heydər Əliyevin parlamentə Sədr seçilməsindən sonra Milli Məclisdə verdiyi bəyanatda müstəqil dövlətçiliyin inkişaf konsepsiyası və yolları sistemli şəkildə açıqlanırdı. Bu istiqamətdə məqsədyönlü tədbirlərin həyata keçirilməsinə başlandı. Böyük öndər Heydər Əliyevin 1993-cü ilin iyun-oktyabr aylarında və sonrakı dövrdə müstəqil Azərbaycan dövlətinin qorunması və möhkəmləndirilməsi uğrunda mübarizəsi strateji məqsəd daşıyırdı.

Ulu öndər hakimiyyətə gəldiyi ilk dövrlərdən Qərb dövlətləri ilə ikitərəfli münasibətləri, qarşılıqlı faydalı əlaqələri inkişaf etdirməyə başladı, eyni zamanda ölkədə yaranmış müxtəlif səpkili problemlərin aradan qaldırılması istiqamətində köklü və düşünülmüş islahatların bünövrəsini qoydu.

Müstəqil Azərbaycanın qurucusu ölkəyə rəhbərlik etməyə başladıqdan dərhal sonra respublikada ictimai-siyasi sabitlik, sosial ədalət bərqərar oldu. 1994-cü ildə atəşkəsin imzalanması sayəsində Ümummilli lider Azərbaycan-Ermənistan cəbhəsindəki ağır vəziyyətə son qoydu. Düşünülmüş və gələcəyə hesablanmış siyasətin uğurlu nəticələrini görən xalqımızın sabaha ümidləri daha da artdı.

Ulu öndər Heydər Əliyev iqtisadiyyatı dirçəltmək, onu yenidən inkişaf yoluna çıxarmaq üçün düşünülmüş strategiya işləyib hazırladı. Ulu öndərin yeritdiyi məqsədyönlü daxili və xarici siyasət sayəsində Azərbaycanın malik olduğu təbii sərvətləri, zəngin karbohidrogen ehtiyatları onun əsl sahibinə - Azərbaycan xalqına verildi. Azərbaycanın əsas sərvətinə - neft amilinə əsaslanan bu strategiyanın həyata keçirilməsində müstəqil respublikanın iqtisadi yüksəlişinin təməlini qoyan "Əsrin müqaviləsi"nin müstəsna rolu olmuşdur. Ümummilli lider Heydər Əliyevin düşünülmüş müdrik siyasətinin bəhrəsi olan bu müqavilənin və sonralar imzalanmış digər neft müqavilələrinin uğurla reallaşdırılması gənc müstəqil Azərbaycan dövlətini düşdüyü ağır iqtisadi vəziyyətdən çıxarmağın yeganə düzgün yolu idi. Ulu öndərin yeni iqtisadi strategiyasının prinsipial məqamlarından biri də o idi ki, neftə məqsəd deyil, vasitə kimi baxılırdı. Neft hasil edən, lakin heç də hərtərəfli tərəqqiyə nail ola bilməyən ölkələrin təcrübəsinə yaxından bələd olan Ulu öndər Heydər Əliyev Azərbaycan iqtisadiyyatının gələcəyini təkcə neftlə bağlamırdı, O, qeyri-neft sektorunun daha sürətli inkişafını iqtisadi siyasətin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirmişdi. Ona görə də Ulu öndər respublikanın enerji sisteminə də xüsusi diqqət və həssaslıq göstərirdi. Sosial-iqtisadi həyatın mühüm sahələrindən olan elektroenergetikada dayanıqlı inkişafı təmin etmək məqsədilə 1970-80-ci illərdə təxirəsalınmaz tədbirlər həyata keçirilmiş, bir sıra irimiqyaslı layihələr reallaşdırılmışdı. Ulu öndər Heydər Əliyev respublikanın elektrik enerjisinə olan tələbatını yerli imkanlar hesabına ödəməyi qarşıya məqsəd qoyaraq, bu istiqamətdə gərgin fəaliyyət göstərmişdir.

Bütün bunlar təsdiqləyir ki, Ümummilli lider Heydər Əliyev bütün mənalı həyatı və şərəfli dövlətçilik fəaliyyəti müddətində yalnız Azərbaycanı düşünmüş, onun müasirləşməsinə, qüdrətlənməsinə, çiçəklənməsinə çalışmışdır. Dahi öndərimiz Azərbaycanı daim inkişaf edən, müasir görmək istədiyindən xalqın gələcək taleyinə biganə qalmamış, müasirləşmə xəttini özündən sonra layiqincə davam etdirəcək müasir düşüncəli, yüksək idarəetmə və təşkilatçılıq qabiliyyətinə malik müasir ruhlu lider yetişdirmişdir. Əgər Ulu öndər Heydər Əliyevin müasirləşmə siyasəti ötən əsrin 70-ci illərindən etibarən Azərbaycanı keçmiş SSRİ-nin qabaqcıl ölkəsinə çevirmişdisə, eyni zamanda 90-cı illərdə xoas və tərəqqidən inkişafa doğru mükəmməl strategiyanı təmin etmişdisə, Onun layiqli davamçısı cənab Prezident İlham Əliyevin yürütdüyü modernləşmə kursu respublikamızın milli inkişaf modelinin formalaşmasını şərtləndirmişdir.

Tariximizin ən yeni mərhələsində 2003-cü ildən sonrakı dövr Prezident İlham Əliyevin parlaq fəaliyyəti və uğurlu illər kimi yadda qalacaqdır.

Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi müddət Azərbaycanın şanlı tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olmuşdur. Məlum olduğu kimi, ictimai-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin fundamentini Ümummilli lider Heydər Əliyevin inkişaf strategiyası, Onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti təşkil edir. Hazırlanan Dövlət proqramları, onların dəqiq icra mexanizmi bütün xalq tərəfindən dəstəkləndiyindən ölkəmizin sürətli inkişafı üçün əlverişli şərait yaranmışdır.

Ümummilli liderimizin alternativi olmayan düşünülmüş daxili və xarici siyasəti bu gün Onun siyasi varisi, Heydər Əliyev siyasi məktəbinin layiqli yetirməsi və davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezidentimiz dəfələrlə bəyan etmişdir ki, Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ölkədə yalnız Ulu öndər Heydər Əliyevin siyasəti davam etdirilməlidir.

Bu gün Azərbaycanda həyatımızın bütün sahələrində - təhsil, səhiyyə, elm və s. sürətli inkişaf müşahidə olunmaqdadır. Təhsil hər bir cəmiyyətin, dövlətin gələcək inkişafını, tərəqqisini müəyyən edən strateji fəaliyyət istiqamətidir. Xüsusilə, qloballaşma dövründə yeni informasiya, intellekt, bilik cəmiyyətinin, bilik iqtisadiyyatının formalaşdığı bir mühitdə hər bir cəmiyyətin inkişafında təhsilin və elmin rolu danılmazdır. Ölkə Prezidenti İlham Əliyev haqlı olaraq vurğulayır ki, **"biz iqtisadi potensialımızı intellekt potensialına çevirməliyik"**. Müasir təhsil sistemini keçmiş təhsil sistemindən fərqləndirən cəhət onun məhz milli xarakter daşımasıdır. Millilik ölkənin inkişaf perspektivlərinə, xalqımızın mənəvi dəyərlərinə, mentalitetinə, zəngin tarixi ənənələrinə, demokratiyaya, humanizm prinsiplərinə əsaslanır.

Ölkə rəhbərliyinin təhsilə, səhiyyəyə göstərdiyi xüsusi diqqət və qayğı gələcəyimiz olan sağlam, savadlı və vətənpərvər gəncliyin yetişdirilməsi kimi strateji məqsəd daşıyır. Azərbaycan Respublikası Prezidentinin ölkədə sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında fərmanları təhsilin, səhiyyənin inkişafına böyük təkan vermiş və geniş imkanlar yaratmışdır.

Bütün bu nailiyyətlərin əldə olunmasında, bəşəriyyət üçün müstəsna əhəmiyyət kəsb edən bu cür təşəbbüslərin irəli sürülməsi və uğurla reallaşmasında, heç şübhəsiz ki, Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri vardır. Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş zəngin ənənələrə, Ulu öndərin zəngin irsinə sadiqlik nümunəsi kimi Heydər Əliyev Fondu da bütün bu istiqamətlərin inkişafına öz tarixi töhfələrini verməkdədir. Azərbaycanın Birinci vitse-prezidenti, ölkəmizin birinci xanımı, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbəri olduğu bu Fond ölkəmizdə tolerantlıq ənənələrinin qorunması işinə xüsusi diqqət yetirir. Fondun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi bu sahədə görülən işlərdən biridir. Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Azərbaycan mədəniyyətinin böyük hamisi Mehriban xanım Əliyevanın dəstəyi və bilavasitə təşkilatçılığı ilə ölkəmizdə reallaşdırılan nüfuzlu beynəlxalq mədəniyyət tədbirləri respublikamızı dünyanın mədəni həyatının mərkəzinə çevirib.

Ümummilli lider Heydər Əliyevin alternativi olmayan daxili və xarici siyasətinin, strateji və siyasi xəttinin görkəmli şəxsiyyət, dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində bu gün Azərbaycan dinamik inkişaf edən ölkəyə çevrilmiş, beynəlxalq aləmdə etibarlı tərəfdaş imici qazanmışdır. Ölkəmizdə təhlükəsizlik tədbirləri təmin edilir, Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşayır. Ölkəmizdə sabitliyin mənbəyinin xalqımızın iradəsi, xalqımızın seçimi olduğunu, bu gün ölkəmizin dünya miqyasında sabitliyi ilə seçilən ölkələrdən biri olduğunu qeyd edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözlərinə görə, Azərbaycan öz yoluna sadiqdir, müstəqillik, inkişaf yolu ilə gedir və biz çalışmışıq və çalışacağıq bundan sonra da ölkəmizi, xalqımızı mümkün olan risklərdən qoruyaq, öz müstəqil yolumuzu təmin edək: **"Artıq tarix və ətrafda baş verən hadisələr göstərir ki, bizim seçdiyimiz yol yeganə düzgün yoldur. Bu, müstəqillik yoludur, sabitlik, inkişaf yoludur"**. Azərbaycan xalqı sabit və dayanıqlı inkişafı təmin edən bu yolu bəyənir və əməli şəkildə dəstəkləyir.

Dövlətimizin başçısı Azərbaycanın seçdiyi yolun yeganə düzgün yol olduğunu vurğulayaraq demişdir: **"Bugünkü Azərbaycan uğurla inkişaf edir. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Heydər Əliyevin əsəridir. Bu, sadəcə olaraq sözlər deyildir. Bu, reallıqdır, bu, həqiqətdir. 1993-2003-cü illərdə siyasi sistemin möhkəmlənməsi, dövlətçilik ənənələrinin yaradılması, azərbaycançılıq məfkurəsinin bərqərar olunması nəticəsində bu gün Azərbaycan uğurla inkişaf edən ölkəyə çevrilibdir. O illərdə həm siyasi islahatlar, dünya birliyinə inteqrasiya siyasətimiz, həm daxildə aparılan iqtisadi və sosial islahatlar uğurlu inkişaf üçün möhkəm zəmin yaratmışdır. Bu gün müasir Azərbaycan bu möhkəm təməl üzərində uğurla inkişaf edir. Azərbaycan bu gün Heydər Əliyev yolu ilə gedir. Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır və özünü bütün istiqamətlərdə göstərir"**.

Fəxr edirik ki, Ümummilli liderimiz, müasir Azərbaycanın memarı, əbədi rəhbərimiz Heydər Əliyevin alternativi olmayan daxili və xarici siyasətini və ideyalarını möhtərəm cənab Prezident İlham Əliyev 2003-cü ildən etibarən uğurla davam etdirir. Möhtərəm Prezidentimiz İlham Əliyev son 15 ildə modernləşməni, yeniləşməni həyata keçirilən siyasətin əsası kimi dəyərləndirərək, təkmil islahatları ilə Azərbaycanı irəliyə aparır.

Məhz Prezident İlham Əliyevin uğurlu fəaliyyəti ölkənin beynəlxalq aləmdəki nüfuzunu möhkəmləndirir, Azərbaycanın etibarlı tərəfdaş olduğunu sübut edir, ölkə vətəndaşlarının dövlət başçısının ətrafında getdikcə daha sıx birləşməsinə səbəb olur. Qətiyyətlə demək olar ki, məhz bu düşünülmüş siyasət respublikada dayanıqlı inkişafı, Azərbaycan xalqının rifah halının yüksəlməsini, ictimai-siyasi sabitliyi, vətəndaş həmrəyliyini, əzmlə aparılan dövlət quruculuğunu hərtərəfli təmin edir.

Əsas təməlləri Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan müstəqil ölkəmizdə bu gün xalq-iqtidar birliyi var və Azərbaycan xalqı gələcəyə çox böyük nikbinliklə baxır. Bizim hər birimiz sosial mənşəyimizdən, milliyyətimizdən, tutduğumuz vəzifədən asılı olmayaraq Prezident İlham Əliyevin ətrafında sıx birləşməli və Azərbaycan dövlətinin inkişafı, çiçəklənməsi, xoş gələcəyi uğrunda yorulmadan fəaliyyət göstərməliyik!

# Məhkəmə-Hüquq Şurasının iclası keçirilib



Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib.

Şuradan AZƏRTAC-a bildiriblər ki, Fikrət Məmmədovun sədrliyi ilə keçirilən iclasda son illər ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə məqsədyönlü tədbirlərin görüldüyü vurğulanıb. Bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, hakimlərin şəffaf seçiminin keçirilməsi, insanların məhkəmələrə müraciət imkanlarının asanlaşması, "Elektron məhkəmə" informasiya sisteminin yaradılmasının nüfuzlu beynəlxalq təsisatlar tərəfindən təqdir olunduğu bildirilib.

Məhkəmə infrastrukturunun müasirləşdirilməsində dövlətimizin başçısının yüksək dəstəyi qeyd olunub. Yeni inşa edilən və ən müasir texnologiyalarla təmin olunmuş müasir məhkəmə bina və komplekslərinin açılışında Azərbaycan Prezidentinin şəxsən iştirakının məhkəmə hakimiyyətinin möhkəmləndirilməsinə dövlət qayğısının bariz nümunəsi olduğu vurğulanıb.

İclasda Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə Prezident İlham Əliyevin sərəncamları ilə hakimlərin və Məhkəmə-Hüquq Şurası üzvlərinin bir qrupunun "Əməkdar hüquqşünas" fəxri adına layiq bilinməsi, habelə orden və "Tərəqqi" medalı ilə təltif edilməsi qeyd olunub.

Tədbirdə həmin təltiflər təntənəli surətdə təqdim edilib. Dövlət təltiflərinə layiq bilinmiş şəxslər çıxışlarında onların fəaliyyətinə verilən yüksək qiymətə görə dövlətimizin başçısı İlham Əliyevə sonsuz ehtiramlarını ifadə edib, bunun böyük məsuliyyət hissi yaratdığını, məhkəmə hakimiyyətinin inkişafı naminə daha fədakarlıqla çalışmağa ruhlandırdığını bildiriblər.

Eyni zamanda, Məhkəmə-Hüquq Şurasının iclasında səlahiyyət müddəti bitmiş 56 hakimin və 7 məhkəmə sədrinin fəaliyyətinin qiymətləndirilməsi nəticələri prinsipial müzakirə edilib. Dörd məhkəmə sədrinin işində nöqsan və çatışmazlıqlara görə aşağı işə keçirilməsi, vətəndaşlarda haqlı narazılıq doğuran pozuntulara yol verməsi nəzərə alınaraq 6 hakimin səlahiyyətlərinə xitam verilməsi barədə qərar qəbul olunub. Bundan başqa, 57 nəfərin peşəkarlıq səviyyəsinə uyğun müxtəlif hakim vəzifələrinə təyinatı məqsədəuyğun bilinib.

Qeyd olunub ki, ölkəmizdə hakimliyə namizədlərin Avropada nümunə kimi göstərilən obyektiv seçimi nəticəsində 800-dən çox namizəd sırasından 108 hüquqşünas çoxmərhələli imtahanları, o cümlədən bir il müddətində davam etmiş təlimləri və məhkəmələrdə, habelə Türkiyədə və Avropa Məhkəməsində stajkeçməni uğurla başa vurub.

İclasda hakim korpusunun həmin gənc nəsil hakimliyə namizədlər hesabına möhkəmləndirilməsinin əhəmiyyəti vurğulanıb. Həmçinin apellyasiya instansiyası məhkəmələrində sədr müavini və kollegiya sədri vəzifələrinin komplektləşdirilməsi, hakim kadrlarından daha səmərəli istifadə edilməsi məqsədilə rotasiya ehtiyacı, hakimlərin iş yerinin dəyişdirilməsi barədə müraciətləri nəzərdən keçirilib, ətraflı müzakirələr aparılaraq dövlətimizin başçısına müvafiq təkliflər verilib.

Bildirilib ki, bu sahədə görülən tədbirlər nəticəsində məhkəmə sistemində mövcud olan bütün vakansiyaların tam əksəriyyəti komplektləşdiriləcək. Bu da hakimlərin iş yükünün xeyli azalmasına, işlərə daha keyfiyyətlə baxılmasına və süründürməçilik hallarının aradan qaldırılmasına xidmət edəcək.

# İnsanların sağlamlığı dövlətimiz üçün prioritet məsələdir



*Milli Məclisin deputatı Kamaləddin Qafarov www.yap.org.az saytına müsahibə verib:*

**- Kamaləddin müəllim, bir çox qələbə və xoş hadisələrlə əlamətdar olan 2018-ci il başa çatmaqdadır. Bu ildə Azərbaycanın beynəlxalq və milli səviyyədə əldə olunan uğurlarını necə xarakterizə edərdiniz?**

- Hamıya yaxşı məlumdur ki, Azərbaycanın adı hazırda dünyanın inkişaf etmiş bir sıra dövlətləri ilə yanaşı çəkilir. Ölkəmizin beynəlxalq aləmdə islahatçı ölkə kimi nüfuz qazanmasını bugünkü uğurlarımızın təntənəsi kimi dəyərləndirmək olar.

Ümummilli liderimiz Heydər Əliyevin qlobal ideyalarının layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin iqtisadi potensialı güclənmiş, infrastruktur və investisiya layihələri müxtəlif sahələri əhatə etmiş, əhalinin müxtəlif təbəqələri arasında fərqlərin minimallaşdırılması təmin edilmişdir. Qeyri-neft sektorunun inkişafı ilə bağlı hədəflərin reallaşmaşı, son illərdə görülən işlər, əldə olunan uğurlu nəticələr Azərbaycanı bütün dünyaya tanıtmışdır. İnkişafın Azərbaycan modelinin mövcudluğu uğurlu siyasətin göstəricisidir. Qeyri-neft sektorunun sürətlə genişlənməsi, Azərbaycanda sənayeləşmə prosesinin davam etməsi, iqtisadi zonaların yaradılması ölkənin inkişafını daha da sürətləndirir.

İnvestisiya cəlbediciliyinə görə də fərqlənən Azərbaycana istənilən həcmdə xarici maliyyə resursları yönəltmək üçün heç bir problem yoxdur. Ölkə vətəndaşlarının məşğulluq səviyyəsinin yüksəlməsinə göstərilən diqqətin nəticəsidir ki, son 15 ildə 1 milyon 958 mindən artıq iş yeri yaradılmışdır. Sahibkarlığın inkişafı, özəl bölməyə göstərilən dövlət dəstəyi sayəsində işsizliyin 5 faizə düşməsi, yoxsulluğun da eyni həddə saxlanılması aparılan iqtisadi siyasətin uğurudur.

**- Bəs bu davamlı inkişaf sizin təmsil olunduğunuz səhiyyə sektorunda özünü necə əks etdirir? Axı səhiyyəni özündə ehtiva edən sosial siyasət Azərbaycanın daxili siyasətində prioritet yerlərdən birini tutur...**

- Azərbaycan Prezidenti möhtərəm İlham Əliyevin rəhbərliyi ilə son 15 il ərzində böyük uğurlar qazanılan sahələrdən biri də səhiyyə sahəsidir. Qeyd etdiyiniz kimi, ölkəmizdə səhiyyə sektorunun inkişafı ilə bağlı islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir. Təbii ki, bu da dövlətimizin vətəndaş amilinə verdiyi dəyərdən irəli gəlir.

Səhiyyə ilə bağlı mühüm Dövlət proqramlarının hazırlanması, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə təmin olunması bu istiqamətdə həyata keçirilən siyasətin prioritetləridir. Səhiyyə müəssisələrinin təmiri və bərpası, ən müasir avadanlıqlarla təchiz edilməsi, vətəndaşların pulsuz dərman preparatları ilə təmin olunması, müalicəsi, uşaqların bütün növ xidmətlərlə ən yüksək səviyyədə əhatə olunması bu sahədə islahatların əsasını təşkil edir.

2003-cü ildə səhiyyəyə dövlət büdcəsindən ayrılan xərclər 55,3 milyon manat olduğu halda, 2017-ci ildə bu rəqəm 13,5 dəfə artaraq 746,7 milyon manata çatmışdır. Bu dövr ərzində Bakı şəhərində və ölkənin regionlarında 635 tibb müəssisəsi tikilmiş və yaxud əsaslı təmir olunmuşdur.

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çərçivəsində bir sıra bölgələrdə diaqnostika mərkəzləri tikilib istifadəyə verilmişdir.

Bir əsas məqamı da qeyd edək ki, beynəlxalq təşkilatlar, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda həyata keçirilən islahatları yüksək dəyərləndirir. Kompleks tədbirlər qarşıya qoyulan məqsədlərə lazımi səviyyədə nail olmağa əsas yaradır. Qeyd etdiyimiz kimi, hər sahə üzrə konkret Dövlət proqramlarının qəbulu və icrasına xüsusi diqqətin göstərilməsi bir daha bu reallığı təsdiqləyir ki, ölkənin hərtərəfli inkişafı dövlət siyasətinin əsasını təşkil edir. Azərbaycan təcrübəsinin hər sahədə nümunə olması qarşıya mühüm vəzifə kimi qoyulmuşdur.

İnsanların sağlamlığının keşiyində dayanmaq, onlara yüksək xidmət göstərmək səhiyyə işçilərinin borcudur. Möhtərəm İlham Əliyevin bu fikirləri insan amilinə dəyəri bir daha təsdiqləyir: **"İnsanların sağlamlığı dövlətimiz üçün prioritet məsələdir"**.

**- Kamaləddin müəllim, onkoloji xəstəliklərin profilaktikası və müalicəsi, həmçinin icbari tibbi sığorta sahəsində cari ildə hansı yeniliklər olub?**

- Azərbaycanda əvvəlki illərlə müqayisədə onkoloji xəstəliklərin müalicəsi üçün yaradılan şərait müasir səviyyəyə çatdırılıb. Azərbaycan Milli Onkologiya Mərkəzi öz təchizatına görə Avropanın bir sıra qabaqcıl klinikalarından irəlidədir. Bu günədək əldə etdiyi böyük elmi potensial və müasir material texniki baza Milli Onkologiya Mərkəzinin (MOM) təkcə onkologiya sahəsində deyil, onunla əlaqəli olan elmlərdə də çoxsahəli elmi tədqiqat problemlərinin öyrənilməsinə təminat verir. Hazırda MOM onkologiya sahəsində elmi metodik - praktik işin və eləcə də əhaliyə göstərilən ixtisaslaşmış onkoloji yardımın koordinasiyası ilə məşğul olan əsas mərkəz funksiyasını daşıyır. Respublikanın bütün bölgələrindən, 8 rayonlararası onkoloji dispanserdən (Naxçıvan, Xankəndi, Sumqayıt, Lənkəran, Şəki, Mingəçevir, Şirvan) və 100-ə yaxın onkoloji kabinetdən mərkəzə respublikada onkoloji xəstəliklərə mübtəla olmuş insanlar haqqında məlumatlar verilir, onların diaqnostikası və müalicəsi barədə informasiyalar toplanır.

İcbari tibbi sığortaya keçilməsi təmin ediləcək və onun əsasında tibbi yardımın keyfiyyətinə, pasiyentlərin hüquqlarının qorunmasına nəzarət mexanizmlərinin təkmilləşdirilməsinə şərait yaradılacaqdır. Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2013-2020-ci illəri əhatə edən Dövlət Proqramı uşaq və yeniyetmələr arasında profilaktik müayinələr və dispanserləşdirmə aparılması işini gücləndirməkdədir.

Azərbaycan Prezidentinin Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında səhiyyə sahəsində qarşıda duran başlıca vəzifələrə xüsusi diqqət ayrılıb. Konsepsiyanın müvafiq bölümündə səhiyyəyə ayrılan vəsaitin ümumi daxili məhsulda payının dinamik şəkildə artırılması, həmin vəsaitin səmərəli və məqsədyönlü istifadəsini təmin edən mexanizmlər yaradılması nəzərdə tutulub. Səhiyyə sisteminin islahatları nəticəsində, əsasən, stasionar yardıma istiqamətləndirilmiş təbabətdən ilkin tibbi-sanitariya yardımının üstünlük təşkil etdiyi təbabətə keçilməsi reallaşdırılacaq, ailə həkimi praktikasının genişləndirilməsinə müvafiq şərait yaradılacaqdır. Tibb işçilərinin əməyinin son nəticəyə görə qiymətləndirilməsi prinsipinin tətbiq olunması üçün tədbirlər görüləcəkdir.

Ölkədə səhiyyə sistemində həyata keçirilən mühüm islahatlar nəticəsində dövlət büdcəsində səhiyyənin inkişafına ayrılan vəsaitin məbləği ilbəil artırılır, ölkədə yeni müasir müalicə ocaqları inşa edilir və yenidən qurulur. Bu nəhəng quruculuq və yenidənqurma işlərinin reallaşmasında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti çox hörmətli Mehriban xanım Əliyevanın da danılmaz xidmətləri vardır.

**- Kamaləddin müəllim, bu yaxınlarda Milli Məclisdə Azərbaycanın 2019-cu il üçün dövlət büdcəsinin layihəsi təsdiq olundu. Gələn ilin büdcəsində səhiyyə sahəsində hansı tendensiyalar müəyyənləşib?**

- Ümummilli liderimizin siyasi kursunu yeni dövrün tələblərinə uyğun uğurla davam etdirən Prezident İlham Əliyev digər sahələrlə yanaşı, səhiyyənin də inkişafına xüsusi diqqət və qayğı ilə yanaşır. Məhz bunun nəticəsində səhiyyəyə ayrılan büdcə vəsaiti ilbəil artır.

Bildiyimiz kimi, 2018-ci ilin dövlət büdcəsində səhiyyə xərcləri üçün 740,7 milyon manat vəsait ayrılıb, həmin xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 3,5 faiz təşkil edirdi. Belə ki, səhiyyə üçün ayrılan vəsaitin 348,7 milyon manatı və ya 47,1 faizi xəstəxanaların, 109,7 milyon manatı və ya 14,8 faizi poliklinikaların və ambulatoriyaların saxlanılması xərclərinə, 270,7 milyon manatı və ya 36,5 faizi səhiyyə sahəsinə aid edilən digər xidmətlər üzrə xərclərə, 11,7 milyon manatı və ya 1,6 faizi səhiyyə sahəsində tətbiqi tədqiqatlar və digər xidmətlər üzrə xərclərə yönəldilmişdi.

2019-cu il üçün isə səhiyyəyə rekord miqdarda - 1,048 milyard manat vəsait ayrılmışdır. Azərbaycanda səhiyyə xərclərinə ayrılan vəsaitin artım tempi dünyanın əksər ölkələrindən yüksəkdir. Ölkə rəhbərliyinin diqqət və qayğısı nəticəsində mütəmadi olaraq həkimlərin, tibb işçilərinin əməkhaqlarının artırılması, səhiyyə ocaqlarının müasir avadanlıqlarla, yüksəkkeyfiyyətli dərman vasitələri ilə təchiz olunması və yeni tibb mərkəzlərinin yaradılması istiqamətində genişmiqyaslı işlərin həyata keçirilməsi bu sahənin sürətli inkişafından xəbər verir.

Azərbaycan hazırda davamlı inkişaf dövrünü yaşayır. İnanırıq ki, ölkəmiz bundan sonra da möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni zəfərlər qazanacaq və Azərbaycan dünyada lider ölkələrdən birinə çevriləcəkdir!

# Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan regionun lider dövlətinə çevrilib

***"O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirəcək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".*** *Ulu öndərin ABŞ-ın Klivlend xəstəxanasından Azərbaycan xalqına ünvanladığı 1 oktyabr 2013-cü il tarixli müraciətindən götürülmüş olan və cənab Prezidenti müdrikcəsinə xarakterizə edən bu sözlərinin nə qədər uzaqgörənliklə deyildiyini, başqa sözlə, Prezident İlham Əliyevin necə siyasətçi, necə dövlət başçısı və necə şəxsiyyət olduğunu bilmək üçün sadəcə bugünkü Azərbaycan reallıqlarını görmək kifayətdir.*

Bəli, cənab İlham Əliyev ömrünü bütünlüklə bu millətin firavan həyatına, işıqlı gələcəyinə, Azərbaycan dövlətinin quruculuğuna və inkişafına həsr etmiş, həyat və fəaliyyəti böyük bir siyasi idarəetmə akademiyası qədər mükəmməl olan Ulu öndər Heydər Əliyev dühasından pay almış bir müdavimdir. O, çox yaxşı bilirdi ki, tarixin və Tanrının çox nadir hallarda yetişdirdiyi bir dahinin, dünya siyasi nəhəngləri ilə döş-döşə durmağı və siyasi proseslərin flaqmanı olmağı bacaran bir siyasi xadimin, millət atasının oğlu və davamçısıdır. O, Öz bacarığına əmin idi. Bilirdi ki, arxasında Azərbaycan xalqı, onun sevgisi və inamı durur. O, xalqın bir parçası olduğunu çox gözəl anlayır və bilirdi ki, bu xalqın, bu millətin sevinci Onun sevinci, fərəhi Onun fərəhi, kədəri Onun kədəridir. Kökə bağlılıq, Vətən sevgisi, el məhəbbəti və xalqın inamı Onun üçün qüvvət mənbəyi oldu. O, çətinliklərin və maneələrin olacağını da çox gözəl başa düşürdü. Lakin heç vaxt çətinlikləri və maneələri görüb geri çəkilmək yolunu tutmadı. Əksinə, çətinlik və maneələrin üstünə getmək, onları dəf etmək yolunu seçdi. O, qarşısına çıxan hər cür çətinlikləri rəhbəri olduğu xalqın gücü ilə dəf etməyi bacardı. Məhz Onun yorulmaq bilməyən səyləri sayəsində doğma Azərbaycanımız çox qısa zaman kəsiyində həm siyasi, həm də iqtisadi cəhətdən regionun lider dövlətinə, siyasi məsləhətləşmələrin güc mərkəzinə, iqtisadi inkişafın ruporuna çevrildi. Onun hakimiyyətə gəlişi ilə insanların həyatında, güzəranında müsbət dəyişikliklər daha da artmağa başladı. Məmləkət insanı yaşam eşqinə və yaradıcı gücünə güc qatan yeni həyat reallıqlarına qovuşdu.

Dünyanın əksər ölkələrində adətən bu və ya digər ictimai-siyasi formasiya başqası ilə əvəzlənəndə siyasi və iqtisadi kataklizmlər qaçılmaz olur. Repressiyalar və qan-qırğın baş alıb gedir. Tarixən belə olub. Halbuki ölkəmizdə aparılan doğru və dürüst siyasət nəticəsində bizim üçün keçid mərhələsi də ciddi ağrı-acı olmadan tarixə çevrildi. Müdriklərin gözəl bir deyimi var: "Siyasətin açarı iqtisadiyyatın cibindədir". Aparılan düzgün siyasət, mükəmməl idarəetmə bacarığı tezliklə ölkədə güclü iqtisadi inkişafa səbəb oldu. Qısa bir zamanda ölkə böyük tikinti meydançasına, quruculuq və abadlıq işlərinin əsl ünvanına çevrildi. İnsanlar aparılan doğru və dürüst siyasətin uğurlu nəticələrini öz gündəlik həyatlarında aydınca hiss edərək məmnunluqla yaşamaqdan zövq almağa başladı. Əhalinin xidmətinə verilən yeni texnologiya, müasir qurğu və avadanlıqlarla təmin olunan çoxsaylı sosial obyektlərin, xəstəxanaların, elm və təhsil ocaqlarının, müasir idman komplekslərinin sayı durmadan artdı.

Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, son illərdə Azərbaycanın enerji sektoruna çox böyük investisiyalar qoyulub. Son 15 il ərzində Azərbaycanda 2500 meqavat gücündə olan yeni elektrik stansiyaları tikilib. Hazırda ölkəmizin, demək olar ki, əksər bölgələrində, o cümlədən Bakı, Sumqayıt, Şirvan şəhərlərində, Astara, Xaçmaz, Şəki, Quba rayonlarında yeni modul tipli elektrik stansiyaları işləyir. Ayrı-ayrı bölgələrdə yeni-yeni su elektrik stansiyaları tikilib və bu gün də tikilməkdədir. Fərəhli haldır ki, görülən bu tədbirlər sayəsində ölkəmiz elektrik enerjisinin idxalçısından ixracatçı ölkəyə çevrilib. Bir sözlə, Azərbaycan energetikası sahəsində möcüzəyə bərabər sıçrayış olub. Qonşu dövlətlər olan Rusiya, İran və Gürcüstanla elektrik xətlərimiz birləşdirilib. Qardaş Türkiyəyə elektrik ixrac etmək üçün geniş imkanlar yaranıb.

Qazlaşdırmaya gəlincə, rəsmi statistikaya görə, 2004-cü ildə ölkə üzrə qazlaşma cəmi 51 faiz təşkil edirdi. Hazırda isə bu rəqəm artıq 95 faizi ötüb. Bu gün Azərbaycanın ən ucqar kəndlər də mavi qazla təmin edilib.

Azərbaycan Prezidentinin birbaşa təşəbbüsü ilə ötən illər ərzində, demək olar ki, bütün rayon və şəhərlərimizdə su təchizatı və kanalizasiya şəbəkəsinin əsaslı şəkildə yenidən qurulması istiqamətində çoxsaylı, həm də olduqca iritutumlu layihələr uğurla həyata keçirilib. Oğuz-Qəbələ-Bakı su kəməri də məhz belə iri və tarixi əhəmiyyəti olan layihələrdəndir. Sevindirici haldır ki, əhalinin içməli su ilə təchizatının yaxşılaşdırılması istiqamətində işlər bu gün də davam etdirilməkdədir. Bununla da ölkə əhalisinin içməli suya olan tələbatındakı problemlər artıq arxada qalmışdır. Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçayda tikilən nəhəng su anbarları isə kənd təsərrüfatının inkişaf etdirilməsi, əkin yerlərinin su ilə təminatı üçün fermerlərimizə edilən böyük ərməğan kimi dəyərləndirilməlidir.

Su çəkmək, yol və körpü salmaq böyük savabı olan əməl hesab olunur. Ulu öndər Heydər Əliyevin təbirincə desək, yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, hər şey deməkdir. Bəli, yeni yollar, bu yolları qovuşduran yeni-yeni körpülər ən ucqar rayon, şəhər və kəndlərimizin iqtisadi cəhətdən uzunmüddətli inkişafı və mədəni cəhətdən yüksəlişi üçün ilkin təməldir. Görün, müstəqillik illərində Azərbaycanda nə qədər yollar salınıb, körpülər inşa olunub. Bu infrastrukturlara milyardlarla manat vəsait xərclənib. Bakı-Quba, Bakı-Qazax, Bakı-Lənkəran, Bakı-Şamaxı istiqamətlərində olan magistral yollarımız, onların üzərindəki körpülər bir yana, hələ görün rayonlararası və kəndlərarası nə qədər yollar yenidən qurularaq asfalt örtüyü vurulub. Nə vaxtsa Şəki ərazisindən axan və az qala eni ilə uzunluğu bir olan dəlisov Şin çayı üzərində bir neçə kilometr uzunluğunda körpülər salınacağı çoxlarına yuxu kimi görünə bilərdi. Amma bu, artıq reallıqdır. Elə Qax ərazisindən axan Kürmük çayı, Zaqatala ərazisindən keçən Lahıc çayı və çoxsaylı digər çaylar üzərində salınan körpülər və bu istiqamətdə çəkilən rahat yollar da son illərədək o bölgədə yaşayan on minlərlə sakin tərəfindən ancaq xəyal edilə bilərdi. Təqdirəlayiq haldır ki, son illərin layihələri olan belə yeni yollar və körpülər şəbəkəsi respublikanın bütün rayonlarını əhatə edir.

Son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çox mühüm layihələrdən daha biri - Ələt Dəniz Limanı da artıq istifadəyə verilmək ərəfəsindədir. Qeyd etməliyik ki, bu liman olmasaydı, ölkəmiz nəqliyyat dəhlizinin mərkəzinə çevrilə bilməzdi. Bakı-Tbilisi-Qars dəmir yolu xətti isə Prezident İlham Əliyevin dediyi kimi, **"Azərbaycan dövləti və xalqı qarşısında tarixi xidmətdir".**

Ötən illər ərzində ölkəmizdə hava nəqliyyatının inkişafı sahəsində də möhtəşəm dəyişikliklər baş vermişdir. Naxçıvan, Gəncə, Qəbələ, Lənkəran, Yevlax, Zaqatala aeroportları yenidən qurularaq sərnişinlərin ixtiyarına verilmişdir. Bakıətrafı dairəvi yol, paytaxtımızın, demək olar ki, hər gün sürətlə yeniləşməkdə və daha da abadlaşmaqda olan küçə, prospekt və meydanları, tıxac probleminin həlli istiqamətində çox mühüm rolu olan çoxsaylı körpülər və mürəkkəb yolötürücü qovşaqlar - bütün bunlar möhtərəm cənab Prezidentimizin yol infrastrukturunun inkişafına nə dərəcədə önəm verdiyinin bariz göstəriciləridir. Əsrin tikintiləri olan və paytaxtımızın yaraşığına çevrilən Heydər Əliyev Mərkəzi, Olimpiya Stadionu, Bakı Konqres Mərkəzi, Xalça Muzeyi, Muğam Mərkəzi və Alov qüllələri təkcə Azərbaycan milli memarlığının deyil, bütövlükdə müasir dünya arxitekturasının nadir inciləridir.

Ötən illər ərzində regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çərçivəsində respublikanın şəhər və rayonlarında da dünya standartlarına uyğun milli memarlıq üslubunda olan çoxsaylı inzibati və sosial obyektlər, yaşayış binaları tikilib. İnsanların asudə vaxtlarını səmərəli təşkil etmək üçün hər yanda yeni-yeni müasir istirahət mərkəzləri və parklar salınıb. Ölkəmiz az vaxtda Cənubi Qafqazın başlıca turizm və səyahət zonası kimi tanınmaqla yanaşı, həm də sabitliyin, sülhün və qardaşlığın əsl ünvanına çevrilib. Görün son illər müasir innovasiya və texnologiyalara uyğun nə qədər yeni iş yerləri açılıb. Sürətli iqtisadi inkişaf yoluna qədəm qoyan Azərbaycan qısa bir zamanda dünyanın ixracatçı dövlətləri sırasına qoşulub.

Görülən təxirəsalınmaz tədbirlər və göstərilən dövlət qayğısı nəticəsində kənd təsərrüfatı sahəsində də uğurlu nəticələr qazanılmaqdadır. Aqrar sektorun inkişafı üçün fermerlərə gübrələr, dərman preparatları, maşın və traktorların güzəştli qiymətlərə satılması və kənd təsərrüfatı ilə məşğul olan insanlara subsidiyalar ayrılması da öz bəhrəsini verdi. Aqrar sektorda işlərin daha səmərəli təşkili məqsədilə yeni-yeni aqroparklar yaradılıb. Kəndli-fermerlər yeni, daha məhsuldar toxum sortları ilə təmin edilib. Daha məhsuldar cins malqara növlərinin alınıb gətirilməsi üçün heyvandarlara göstərilən dövlət qayğısı bir an belə əskik olmayıb. Fermerlərin kənd təsərrüfatı məhsullarını uzun müddətə, həm də daha təhlükəsiz saxlamaları üçün əksər rayonlarda çoxsaylı iritutumlu soyuducu anbarlar tikilib. Əhalinin bostan və tərəvəz məhsulları ilə fasiləsiz təminatı üçün istixanaların salınmasına dövlət qayğısı daha da artırılıb. Regionlarda tərəvəzçiliyin və bağçılığın inkişafına dövlət qayğısı hər yerdə və hər an hiss olunmaqdadır. Bütün bunların nəticəsidir ki, ötən əsrin 90-cı illərinin əvvəllərində xalqımızın yaşamış olduğu çörək və ərzaq qıtlığı artıq acı xatirəyə çevrilmişdir.

Cənab Prezident İlham Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə ölkə iqtisadiyyatını neft asılılığından qurtarmaq, eləcə də əhalinin yeni iş yerləri ilə təmin edilməsi, regionlarda əhalinin təkcə kənd təsərrüfatı sahəsi ilə məşğul olan təbəqəsinin deyil, eyni zamanda, sənaye sahəsində çalışmaq istəyənlərin maraqlarının təmin edilməsi məqsədi ilə çoxsaylı sənaye parkları, sənaye məhəllələri yaradılmışdır. Neftçala, İmişli, Mingəçevir, Şəmkir, Sabirabad, Masallı və Hacıqabulda yeni sənaye müəssisələri fəaliyyətə başlayaraq ölkə iqtisadiyyatının gücünə güc qatmaqla region əhalisinin sosial vəziyyətinin daha da yaxşılaşması üçün real təminata çevrilmişdir. Artan iqtisadi inkişaf uğurlu dövlət siyasətinin tərkib hissəsi olduğundan təbiidir ki, insanlar da öz məmnunluğunu dövlət siyasətinə, onun başçısına prezident seçkiləri zamanı verdikləri səs, göstərdikləri siyasi fəallıq və prinsipial mövqe ilə ifadə etmiş oldular. Bir sözlə, Azərbaycanda xalq öz Prezidentinin yanında, Prezident isə xalqın ürəyində, qəlbində qərar tutub. Bu isə o deməkdir ki, xalq-hakimiyyət, hakimiyyət-xalq birliyi Azərbaycanda hər yanda və bütün sahələrdə öz parlaq nəticələrini göstərməkdədir.

Heyrət doğuran daha bir Azərbaycan reallığı dünyada siyasi və iqtisadi kataklizmlərin, bir sıra oturuşmuş dövlətlərdə vətəndaş müharibəsinin, məxməri inqilabların baş verdiyi, siyasi intriqaların qanlı savaşlarla nəticələndiyi bir zamanda Azərbaycanın sülhün, sabitliyin və iqtisadi inkişafın yeni və dəyişməz ünvanına çevrilməsi oldu. Dünyanın bir sıra ölkələrini maliyyə böhranı bürüdüyü bir zamanda Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Fərman imzaladı. Prezidentin bundan əvvəl imzaladığı digər Dövlət proqramları kimi, bu proqram da artıq uğurla yerinə yetirilməkdədir. Bu isə yeni istehsal sahələrinin işə düşməsi, minlərlə insanın iş yerləri ilə təmin olunması, büdcə gəlirlərimizin artımını təmin edəcək yeni-yeni maliyyə mənbələrinin dövriyyəyə girməsi, rayon, şəhər və kəndlərimizin daha da abad olması, ən başlıcası isə, insanların daha firavan həyata qovuşması deməkdir. Bütün bunlar, hər şeydən əvvəl, xalqın sevgisi, aparılan düzgün siyasətin, güclü, mütərəqqi və demokratik idarəetmə qabiliyyətinin, eyni zamanda, özünə inamın nəticəsi kimi dəyərləndirilə bilər.

ABŞ-ın 35-ci prezidenti Con Kennedinin belə bir məşhur deyimi var: "Soruşma ki, Vətən sənin üçün nə edib, de ki, sən özün Vətən üçün nə etmisən". Bu mənada, möhtərəm Prezidentimiz nə edirsə, ölkənin, millətin taleyi və istiqbalı üçün edir. Həyatda evsizə ev verməkdən, qəlbi sındırılmış bir insanı sevindirməkdən, məzlumun dərdinə əlac etməkdən savab iş nə ola bilər?! Dünyanın hansı ölkəsində dövlət jurnalistlərə, elm və sənət adamlarına xüsusi təqaüd və əvəzi ödənilmədən mənzillər verir?!

Qaçqın, məcburi köçkün ömrü yaşamaq ağır dərddir. Dünyanı bürüyən haqsızlıq və ədalətsizliklər ucbatından bir milyondan artıq soydaşımız artıq 30 ildir ki, bu acı taleyi yaşamaqdadır. Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı işğal altında olan torpaqlarımızın azad olunması, qaçqın və məcburi köçkünlərin öz doğma ata-baba yurdlarına dönməsi üçün yorulmaq bilmədən səylər göstərir. O, bütün səviyyələrdə olan görüş və söhbətlərində xalqı əmin edir ki, bir qarış belə Azərbaycan torpağı düşmən tapdağı altında qalmayacaqdır. Xalq da öz Prezidentinə inanır, Onun siyasətini və qərarlarını ürəkdən dəstəkləyir. Hamı və hər kəs, o cümlədən qaçqın və məcburi köçkün ailələri qəti olaraq əmindirlər ki, əgər işğal altında olan ərazilərimizin sülh və danışıqlar yolu ilə azad edilməsi mümkün olmasa, o zaman torpaqlarımız hərb yolu ilə, ordumuzun gücü ilə geri qaytarılacaqdır. Xalqımız əmindir ki, hərbi-texniki təchizat və mənəvi-psixoloji cəhətdən hazırda dünyanın ən güclü və hazırlıqlı orduları sırasında duran Azərbaycan Ordusu hər an bu şərəfli vəzifəni icra etməyə qadirdir.

Bəli, Ulu öndər Heydər Əliyev tərəfindən başlanan ordu quruculuğu işi bu gün ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməkdədir. Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyinə həsr olunmuş hərbi paradda nümayiş olunan ən müasir hərbi texnika və qurğular bunu bir daha göstərdi. Azərbaycan xalqı ilə yanaşı, bütün dünya ordumuzun hərbi-texniki potensialını gördü. Belə bir ordusu olan xalq necə də fəxr etməsin?!

Məni bir vətəndaş və ziyalı olaraq daha artıq təsirləndirən məqamlardan biri də odur ki, cənab Prezident nə qədər çətin olsa belə, Qarabağ probleminin həlli istiqamətində danışıqları davam etdirməklə və Ali Baş Komandan kimi ordunun hərbi qüdrətinin və döyüş qabiliyyətinin gündən-günə daha artıq yüksəldilməsini təmin etməklə yanaşı, qaçqın və məcburi köçkün ailələrinin güzəranının yaxşılaşdırılması istiqamətində də davamlı olaraq çox ciddi tədbirlər həyata keçirməkdədir. Tərtərdə, Füzuli rayonunda, Sumqayıtda, Abşeron rayonunun Müşfiqabad və Qobu qəsəbələrində qaçqın və məcburi köçkünlər üçün salınmış yeni, müasir şəhərciklər dövlətin öz vətəndaşına olan qayğısının bariz göstəricisidir. Hansı ki, cənab Prezident həmin şəhərciklərin hamısının təməlqoyma və açılış mərasimlərində şəxsən iştirak etməklə o insanların dərdinə də, sevincinə də ürəkdən şərik olduğunu əyani şəkildə nümayiş etdirib. Dövlət başçısının səmimiyyətinə və həssaslığına baxın ki, O, bir sıra hallarda Özünün doğum günlərini belə ailəliklə qaçqın və məcburi köçkünləri ziyarətdə keçirib. Mən cənab Prezidentin 2011-ci il dekabr ayının 24-də, yəni Özünün ad günündə Gəncə şəhərində, 2013-cü il dekabr ayının 24-də isə Ağcabədi rayonunun Taxtakörpü ərazisində qaçqın və məcburi köçkünlər üçün salınmış yeni şəhərciklərin açılış mərasimlərində iştirak etdiyini, yeni mənzil alan ailələrə xeyir-dua verdiyini bu gün də çox yaxşı xatırlayıram. Tam məsuliyyətlə deyə bilərəm ki, bu gün Azərbaycanda xalqla dövlətin və dövlət başçısının sarsılmaz birliyinin bünövrəsində hər şeydən əvvəl məhz cənab Prezidentin insanlara münasibətdə sergilədiyi sadəlik, səmimilik və həssaslıq durur.

Bu gün Bakı ilə yanaşı, respublikanın digər şəhər və rayonları da, sözün əsl mənasında, abadlıq və quruculuq meydanını xatırladır. Qədim Gəncə sürətlə böyüyərək daha da gözəlləşir. Xəyalların gerçəkləşdiyi şəhərə çevrilən Sumqayıt bu gün ölkə Prezidenti cənab İlham Əliyevin məxsusi diqqət və qayğısının nəticəsi olaraq abadlıq və quruculuq işlərinin simvoluna çevrilib. Son illərdə infrastrukturun yenilənməsi və dünya standartlarına cavab verən modern istehsal sahələrinin yaradılması nəticəsində ölkənin makroiqtisadi göstəricisində Sumqayıtın çəkisi əhəmiyyətli dərəcədə artıb. Müasir innovasiya və texnologiyalar əsasında idarə olunan Sumqayıt texnoparkı ölkəmizin xarici investorlarla birgə inşa etdiyi ilk müştərək Almaniya-Azərbaycan müəssisəsidir. Sumqayıtın yeni sənaye nəhənglərindən olan Kimya Sənaye Parkında istehsal olunacaq məhsullar ölkəmizin tələbatını ödəməklə yanaşı, "Made in Azerbaijan" brendi ilə xarici bazarlara ixrac olunacaq. Çox yaxın zamanlarda kənd təsərrüfatı ilə məşğul olan sahibkarların baha qiymətlərlə İran, Gürcüstan və Rusiyadan aldıqları karbohidratlar Sumqayıtda istehsal olunacaq. Həyata keçiriləcək bu layihə nəticəsində daha 2000 insan yeni iş yeri ilə təmin olunacaq, ölkəmizin iqtisadi qüdrətinə yeni güc qatılacaq. Bu, ölkədən kifayət qədər böyükhəcmli kapital axınının qarşısını alacaq.

Məşhur ingilis siyasətçisi və dövlət xadimi Uinston Çörçill yazırdı: **"Dövlət xadiminin siyasi xadimdən fərqi ondadır ki, siyasətçi gələcək seçkiləri, dövlət xadimi isə gələcək nəsilləri düşünərək fəaliyyət göstərir".**

Ölkə Prezidenti, xalqın sevimlisi cənab İlham Əliyev də Öz fəaliyyətini əsl dövlət xadimi kimi qurmağı bacardı. O, seçkiləri deyil, gələcək nəsilləri düşündü. Cənab Prezident vaxtında qətiyyətli qərarlar qəbul etdi. O, Azərbaycan iqtisadiyyatını yenidən quraraq, xalqımızın əmək hünərləri estafetini gələcək nəsillərə ötürmək üçün gecəsini gündüzünə qataraq, bu xalq, bu millətlə birlikdə uğurlu iqtisadi inkişafa imza atmağı bacardı.

Sevindirici haldır ki, birbaşa ölkə Prezidentinin hərtərəfli qayğısı və nəzarəti şəraitində aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri nəticəsində bu gün Azərbaycanın ən ucqar rayon mərkəzləri də modern şəhər statusuna iddialıdır. Özü də şəhər və kəndlərimizdə təkcə sosial-iqtisadi inkişaf, abadlıq və quruculuq baxımından deyil, eyni zamanda, əhaliyə göstərilən xidmət baxımından da heyrətamiz dəyişikliklər baş verib. Səyyar "ASAN xidmət" qatarları respublikanın ən ucqar yaşayış yerlərinə, necə deyərlər, insanlarımızın ocaqlarının başına qədər gedib çıxdı. Dünyanın bir sıra mütərəqqi dövlətləri tərəfindən maraqla öyrənilən bu xidmət növünü iftixarla əsl Azərbaycan brendi adlandıra bilərik.

Sovet dönəmində cəmi bir televiziyası və bir radiosu olan Azərbaycanda bu gün 10 ümumrespublika yayımçısı olan televiziya, 13 regional televiziya, 3 peyk yayımçısı olan televiziya, 17 kabel televiziyası, 25-dən çox İP televiziya, ümumrespublika yayımçısı olan 13 radio və 3 regional radio fəaliyyət göstərməkdədir. İnsanları maarifləndirən, onları məlumatlandıran, düşündürən və həm də əyləndirən bu nəhəng infrastrukturda 10 min nəfərdən çox mütəxəssis çalışır. Bu yolla da Azərbaycan həqiqətləri dünyaya, dünya reallıqları isə Azərbaycan insanına çatdırılır. Prezident İlham Əliyevin səyləri və uzaqgörən siyasəti nəticəsində Azərbaycan dünyada az sayda olan kosmik dövlətlər sırasında da özünə yer alıb. 2013-cü ildə kosmosa çıxarılan "Azerspace-1" rabitə peykinin xidmətindən bu gün Azərbaycanla yanaşı, dünyanın bir sıra ölkələri də istifadə etməkdədir. 2015-ci ildən etibarən "Azersky" peyki Azərbaycanın müdafiəsi və təhlükəsizliyi məqsədilə kosmosa buraxılıb. Bu yaxınlarda daha bir rabitə peykimiz - "Azerspace-2" kosmosa çıxarıldı. Bütün bunlar isə onu deməyə əsas verir ki, Ulu öndərin Özü qədər inandığı və gələcəyinə böyük ümid bəslədiyi siyasi varisi bütün parametrlər üzrə Onun ümidlərini çox yüksək səviyyədə doğrultmaqla bütövlükdə Azərbaycan xalqının sevimlisinə və qürur yerinə çevrilib. Fəxarət hissi ilə onu da deməliyəm ki, cənab Prezident Özünün müasir düşüncəsi və sülhsevər xarici siyasəti ilə dünya xalqlarının və liderlərinin də dərin sevgi və rəğbətini qazanmışdır. Onun dünyanın müxtəlif ölkələrinə davamlı olaraq həyata keçirdiyi rəsmi səfərlər, Bakıda baş tutan ikitərəfli və çoxtərəfli görüşlər, danışıqlar və qlobal sammitlər də, sözsüz ki, Azərbaycanın beynəlxalq nüfuzunun və dünya siyasiləri tərəfindən cənab Prezidentin şəxsiyyətinə və xidmətlərinə olan dost və isti münasibətin göstəricisidir. Xoş haldır ki, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanı, İordaniya, Mərakeş, Belarus, Qazaxıstan, Gürcüstan və neçə-neçə digər dövlətlərin başçıları ikitərəfli və çoxtərəfli görüşlər zamanı əksər hallarda Azərbaycan Prezidentinə "əziz dostum və qardaşım" deyə müraciət edirlər. Sözsüz ki, bu cür hörmət, ehtiram və etibar qazanmaq heç də hər dövlət başçısına nəsib ola biləcək xoşbəxtlik deyil. Azərbaycan xalqı haqlı olaraq fəxr edir ki, onun Prezident İlham Əliyevin şəxsində dünya liderləri tərəfindən xüsusi hörmət və ehtiram göstərilən parlaq siyasi lideri var. Azərbaycan Prezidentinin yüksək insani keyfiyyətləri, son dərəcə səmimi və ünsiyyətcil olması, ikitərəfli və çoxtərəfli görüş və sammitlərdə etibarlı dost və tərəfdaş kimi çıxış etməsi dünya liderlərinin Ona olan inam və rəğbətini getdikcə daha da artırmaqdadır. Bu isə həm də Azərbaycan dövlətinə və Azərbaycan xalqına olan inam və rəğbətin göstəricisi deməkdir.

Etiraf edək ki, dünyanın bir çox dövlət başçıları və nüfuzlu siyasətçiləri ilə cənab Prezident arasındakı yüksək səviyyəli şəxsi dostluq əlaqələri təkcə regionumuzda deyil, bütövlükdə dünyada hökm sürən ab-havaya da təsir edir. Prezidentimizin beynəlxalq münasibətləri dərindən təhlil etmək və həlledici anlarda düzgün qərarlar qəbul etmək bacarığı, hər yerdə və hər zaman dövlətimizin, dostlarımızın və müttəfiqlərimizin maraqlarını layiqincə müdafiə etməsi hər bir Azərbaycan vətəndaşını intəhasız dərəcədə qürurlandırır. 2014-cü ilin aprel ayında Praqada keçirilən "Şərq tərəfdaşlığı" sammitində Ermənistanın sabiq prezidenti S.Sarkisyan qardaş Türkiyənin ünvanına hədyanlar söyləyərkən Azərbaycan Prezidenti ona olduqca sərt cavab verdi: **"Bu gün təəssüf ki, Ermənistan prezidenti burada fürsətdən istifadə edərək Türkiyəyə yenidən hücum edir. Bunu etmək asandır, çünki bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam və Türkiyə-Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm".**

Cənab Prezidentin məqamında demiş olduğu bu sərt sözlər tək Ermənistan rəhbərliyinə yox, lap elə Ermənistanın işğalçılıq siyasətinə aşkar və ya gizli surətdə havadarlıq edənlərə ünvanlanan mesaj idi. Bu, yüksək səviyyədə olan Azərbaycan-Türkiyə münasibətlərinin yeni mərhələyə çatmasında möhtərəm cənab Prezidentimizin xüsusi səyi və xidmətləri olduğundan xəbər verir. Bütün bunlardan isə belə bir məntiqi nəticə hasil olur ki, bəli, Azərbaycan Prezidenti təkcə Öz ölkəsinin daxilində deyil, xalqları, dövlətləri bir-birinə yaxın, dost, tərəfdaş və müttəfiq edən çağırışları ilə elə beynəlxalq səviyyədə də quruculuq missiyasını uğurla həyata keçirməkdədir.

Maraqlıdır, hər dəfə əlimə qələm alıb möhtərəm cənab Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ərzində respublikamızın bütün sahələrdə əldə etmiş olduğu uğurlar barədə yazmaq qərarına gələndə qeyri-ixtiyari olaraq Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqına ünvanladığı 1oktyabr 2003-cü il tarixli müraciətində yer alan "mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" kəlamı yadıma düşür. Necə də sərrast və uzaqgörənliklə ifadə olunub. Qürurverici haldır ki, Ulu öndərin siyasi varisi Onun bütün ümidlərini tam mənada doğrultmaqla yanaşı, həm də Azərbaycan xalqının hamılıqla güvəndiyi, razı qaldığı, həmrəy olduğu və müdafiə etdiyi nüfuzlu siyasi lider və dövlət başçısı - Prezident oldu.

Azərbaycan xalqı özünün daha parlaq gələcəyinin qarantı olan möhtərəm cənab Prezidentə dönə-dönə minnətdardır ki, O, doğma respublikamızın Ulu öndərin müəyyən etdiyi strateji yolla irəliləyərək, daha da inkişaf edərək çiçəklənməsi üçün əlindən gələni əsirgəmir. Əlbəttə ki, son 15 il ərzində respublikamızın bütün sahələrdə əldə etmiş olduğu uğurların arxasında, hər şeydən əvvəl, Azərbaycan xalqının yaddaşında Qurucu Prezident kimi əbədiləşən gənc, enerjili, qətiyyətli və son dərəcə tədbirli siyasi lider olan dövlət başçımızın titanik fəaliyyəti və gərgin zəhməti durur.



**Qafar CƏBİYEV,**
**Milli Televiziya və Radio Şurası sədrinin müavini, Azərbaycan Respublikasının Əməkdar jurnalisti, tarix elmləri doktoru**

MİDA

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin ilk layihəsi - Yasamal Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə ELAN

Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi yolu, 8 ünvanında yerləşən Yasamal Yaşayış Kompleksinin 1-5 saylı binaları üzrə 46 mənzil, həmçinin 6 və 7 saylı binalarında yerləşən 128 mənzilin, ümumilikdə 174 mənzilin satışı 25 yanvar 2019-cu il tarixində saat 11:00-da başlayacaq və 8 fevral 2019-cu il tarixi saat 11:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi “Elektron hökumət” portalı üzərindən (www.e-gov.az) “Güzəştli mənzil” sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız “Güzəştli mənzil” sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq, mənzillərin seçimində bərabər hüquqa malikdir. Həmin şəxslər elektron kabinetlərində “Satış/Mənzillər” bölməsinə daxil olaraq “erkən gələnə erkən xidmət” prinsipi (satış başladığı anda sistemə daxil olaraq mənzili ilk seçən şəxslər onu almaq imkanı əldə edir) əsasında mənzilləri seçə biləcəklər. “Güzəştli Mənzil” sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində “Güzəştli mənzil sistemi” keçidi vasitəsilə tanış olmaq mümkündür.

## Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa ümumilikdə 174 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 15.11.2016-cı il tarixli 22880 nömrəli və 27.12.2016-cı il tarixli 23089 nömrəli müsbət rəyləri mövcuddur.

**Mənzillərə dair Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhər ərazi idarəsi tərəfindən mülkiyyət hüquqlarının qabaqcadan qeydiyyatı barədə arayışlar verilmişdir.**

| Bina № | Binanın yerləşdiyi torpaq sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 441,56 | 12 | 1 | 1 | 2 | 31,53 – 32,95 | 40,12 | “NN Group” MMC / Bakı şəhəri, Yasamal rayonu, Talıblı küçəsi, 27, 8-ci mərtəbə, qapı 1. | 1 sentyabr 2018-ci il |
| | | | | 2 | 3 | 56,85 – 57,87 | 70,44 | | |
| | | | | 3 | 2 | 70,09 – 70,46 | 84,47 | | |
| 2 | 645,25 | 9 | 2 | 1 | 1 | 33,10 | 40,52 | | |
| | | | | 2 | 11 | 50,12 – 55,02 | 60,10 – 66,91 | | |
| | | | | 3 | 1 | 69,43 | 84,47 | | |
| 3 | 665,45 | 9 | 2 | 1 | 2 | 33,10 | 40,52 | | |
| | | | | 2 | 6 | 54,80 – 55,03 | 66,92 | | |
| | | | | 3 | 1 | 69,92 | 81,64 | | |
| 4 | 675,52 | 9 | 2 | 1 | 3 | 33,10 – 33,37 | 40,52 | | |
| | | | | 2 | 5 | 54,80 – 55,03 | 66,92 | | |
| | | | | 3 | 1 | 69,51 | 81,64 | | |
| 5 | 676,53 | 9 | 2 | 1 | 4 | 33,10 – 33,37 | 40,52 | | |
| | | | | 2 | 3 | 54,65 – 55,03 | 66,92 | | |
| | | | | 3 | 1 | 69,56 | 81,64 | | |
| 6 | 687.45 | 9 | 2 | 1 | 16 | 33,10 – 33,37 | 40,52 | "Hünər-İnşaat" Firması / Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63. | 1 sentyabr 2018-ci il |
| | | | | 2 | 32 | 54,65 - 55,03 | 66,92 | | |
| | | | | 3 | 16 | 69,51 - 69,93 | 81,64 | | |
| 7 | 665.36 | 9 | 2 | 1 | 16 | 33,10 – 33,37 | 40,52 | | |
| | | | | 2 | 32 | 54,65 - 55,03 | 66,92 | | |
| | | | | 3 | 16 | 69,51 - 69,93 | 81,64 | | |

## Satış şərtləri və qiymətlər:

Azərbaycan Respublikası Prezidentinin 16.11.2016-cı il tarixli 1113 nömrəli Fərmanı ilə təsdiq edilmiş Qaydanın 1.2.10-cu yarımbəndi və 3.2-ci bəndinə əsasən vətəndaşlara güzəştli şərtlərlə təklif olunan mənzillərin satış qiyməti Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu tərəfindən təyin edilmiş orta bazar qiymətindən aşağı müəyyən olunmuşdur.

1 otaqlı mənzillərin qiyməti – **29 954** manatdan,

2 otaqlı mənzillərin qiyməti – **47 614** manatdan,

3 otaqlı mənzillərin qiyməti – **65 959** manatdan başlayır.

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | |
|---|---|---|---|---|---|
| | | | *1 otaqlı* | *2 otaqlı* | *3 otaqlı* |
| 4% | 3-30 il | 10% | **129-136 manat** | **205-236 manat** | **283-288 manat** |

* Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda.

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 1 | 29 954 | **2 995** | **26 959** |
| 2 | 47 614 | **4 761** | **42 853** |
| 3 | 65 959 | **6 596** | **59 363** |

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Yasamal Yaşayış Kompleksinin www.yasamal.mida.az internet səhifəsinə daxil olaraq satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə ipoteka və güzəştli mənzil kalkulyatorları vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər, mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla **www.mida.gov.az** və **www.mida.az** internet səhifələrində və ya müvafiq “ASAN xidmət” mərkəzlərinə (1, 3, 5 saylı və Sumqayıt), habelə “108” çağrı mərkəzinə müraciət edərək tanış olmaq mümkündür.

***Qeyd: “Güzəştli mənzil” sisteminin istifadəçiləri satış modulunun yenilənmiş təlimatı ilə öz elektron kabinetlərinin müvafiq bölməsində və ya www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində “Güzəştli mənzil sistemi” keçidi vasitəsilə tanış ola bilərlər.***

# ADU-da Hüseyn Cavidin əsərlərinin özbəkcə nəşrinin təqdimatı olub



Dekabrın 21-də Azərbaycan Dillər Universitetində (ADU) böyük şair və dramaturq Hüseyn Cavidin əsərlərinin özbəkcə nəşrinin təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, tədbirdə ADU-nun rektoru, akademik Kamal Abdulla Hüseyn Cavidin məşəqqətli ömür yolundan və bütün zamanlar üçün aktuallığını qoruyub saxlayan əsərlərinin ideya-məzmun xüsusiyyətlərindən, eləcə də ona göstərilən dövlət qayğısından və xalq sevgisindən söhbət açıb.

Ulu öndər Heydər Əliyevin Cavid sənətini yüksək qiymətləndirdiyini deyən rektor diqqətə çatdırıb ki, dahi sənətkara siyasi bəraəti Ümummilli lider qazandırıb. Cavidin həyatında, yaradıcılığında, daha doğrusu, onun xalqımıza qaytarılmasında önəmli yeri Ümummilli lider Heydər Əliyev tutur. Məhz bu böyük insanın qayğısı və diqqəti nəticəsində Hüseyn Cavidin 100 illik yubileyi Azərbaycanda təntənə ilə keçirilib. Ulu öndər Heydər Əliyevin böyük səyləri və cəsarəti sayəsində Hüseyn Cavidin cənazəsi 1982-ci ildə Azərbaycana gətirilərək doğulduğu Naxçıvanda torpağa tapşırılıb. Məhz Heydər Əliyevin şəxsi təşəbbüsü və himayəsi ilə 1996-cı ildə Hüseyn Cavid məqbərəsi tikilib, Bakıda Hüseyn Cavidin ev-muzeyi açılıb.

Hüseyn Cavidin bütün türk dünyasının şairi olduğunu deyən rektor onun əsərlərinin özbək oxucuları tərəfindən maraqla qarşılanacağını bildirib.

Tədbirdə digər çıxış edənlər Hüseyn Cavidin zəngin yaradıcılığından danışıb, onun ədəbiyyata əvəzsiz töhfələr verdiyini diqqətə çatdırıblar.

Sonda Azərbaycan ədəbiyyatının Özbəkistanda tanıdılması və təbliğindəki fəaliyyətinə görə bir qrup alimə fəxri fərmanlar təqdim olunub.

# YAP Nəsimi rayon təşkilatında ilin yekunları müzakirə olunub





Dekabrın 21-də Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı ilin yekunlarına həsr olunmuş konfrans keçirib.

AZƏRTAC xəbər verir ki, YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı təşkilatın illik fəaliyyəti ilə bağlı məlumat verib. O bildirib ki, təşkilat il ərzində bir sıra tədbirlərlə yanaşı, rayon gənclərinin elmi-praktiki konfransını təşkil edib. Konfransda Nəsimi rayonu ərazisində yerləşən ali məktəblərdə təhsil alan YAP üzvü olan istedadlı gənclərlə birgə bitərəf gənclər də elmi fəaliyyətlərini inkişaf etdirmək üçün öz tezisləri və araşdırmaları ilə iştirak ediblər.

M.İbrahimqızı qeyd edib ki, Azərbaycanda ölkə gənclərinin inkişafı üçün geniş imkanlar yaradılıb. Azərbaycan Prezidentinin diqqət və qayğısını gənclər daim öz üzərilərində hiss edirlər. Məhz bunun nəticəsidir ki, bu gün minlərlə gəncimiz dünyanın müxtəlif nüfuzlu ali məktəblərində təhsil alırlar.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov çıxış edərək ölkədə həyata keçirilən təhsil və gənclər siyasətindən danışıb. Qeyd edib ki, bu gün gənclər Azərbaycan əhalisinin əhəmiyyətli qismini təşkil edir və onlar ölkəmizin siyasi, iqtisadi həyatında fəal rol oynayırlar. Bildirilib ki, partiya gəncləri hər bir sahədə olduğu kimi elm, təhsil sahəsində də fəallıq nümayiş etdirilər.

Daha sonra YAP Nəsimi rayon təşkilatı Gənclər Birliyinin 2018-ci ildə gördükləri işlər barədə videoçarx nümayiş olunub.

Sonra YAP Nəsimi rayon təşkilatı Gənclər Birliyinin sədr əvəzi Söhrab Həşimov hesabat məruzəsi ilə çıxış edib.

Sonda bir qrup fəal gənc mükafatlandırılıb.

# Müstəqil və prinsipial xarici siyasət həyata keçirən Azərbaycana qarşı “qara piar” kampaniyası aparılır

## *“The Guardian” nəşrində Azərbaycanla bağlı iftira və böhtan xarakterli materialın dərc edilməsi bu kampaniyanın tərkib hissəsidir*

Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan özünəməxsus inkişaf modelinə malikdir. Bununla yanaşı, həyata keçirilən uğurlu xarici siyasət nəticəsində ölkəmizin beynəlxalq mövqeyi daha da möhkəmlənib və Azərbaycan etibarlı strateji tərəfdaş kimi tanınır. Reallıq budur ki, Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanın strateji tərəfdaşlıq əlaqələri güclənir, dostlarının və tərəfdaşlarının sayı artır.



***Elman Nəsirov:*** *Azərbaycana qarşı qarayaxma kampaniyası aparan qərəzli dairələr iflasa uğrayacaqlar*

Şübhəsiz ki, bütün bu nailiyyətlər anti-Azərbaycan dairələr tərəfindən qısqanclıq və narahatlıqla qarşılanır. Bu səbəbdən həmin çevrələr ölkəmizə qarşı qarayaxma kampaniyası aparır, bu məqsədlə müxtəlif üsul və vasitələrdən istifadə edirlər. Məhz dekabrın 21-də Böyük Britaniyanın “The Guardian” nəşrində Azərbaycan Respublikası Prezidentinin ailə üzvləri ilə bağlı verilmiş iftira və böhtan xarakterli material da “qara piar” kampaniyasının tərkib hissəsidir. Bu tipli iftiralar müxtəlif xarici KİV-lər tərəfindən əvvəlki dövrdə də irəli sürülüb, lakin heç zaman təsdiqini tapmayıb.

Ekspertlər qeyd edirlər ki, Qərb KİV-lərində zaman-zaman dərc olunan bəzi materiallar, o cümlədən “The Guardian” nəşrində verilən belə məqalələr müstəqil və prinsipial xarici siyasət yürüdən Azərbaycan Respublikasına, onun region dövlətləri, o cümlədən Rusiya və MDB ölkələri, Türkiyə, İran və s. ilə gündən-günə inkişaf edən, qarşılıqlı maraqlara və mehriban qonşuluq prinsipinə əsaslanan əlaqələrinə təzyiq xarakteri daşıyır.

Məsələyə münasibət bildirən Milli Məclisin deputatı Elman Nəsirov Azərbaycana qarşı bu cür qarayaxma kampaniyalarının aparılmasının ilk dəfə olmadığını deyib: **“Biz bundan əvvəl də ölkəmizə qarşı bu cür qərəzli kampaniyaların aparılmasının şahidi olmuşuq. Lakin həmin qərəzli dairələr tərəfindən irəli sürülən iddialar heç vaxt öz təsdiqini tapmayıb. Məhz bu cür kampaniyalara yenidən start verilməsi təsadüfi xarakter daşımır. Çünki Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycanın ciddi nailiyyətlər əldə etməsi anti-Azərbaycan dairələr tərəfindən böyük narahatlıqla qarşılanır, onlar bu cür kampaniyalar vasitəsilə uğurlarımızın üzərinə kölgə salmağa çalışırlar”.**

Azərbaycanın regionun lider dövləti və sabitlik adası olduğunu deyən millət vəkili əlavə edib ki, Bakı dünyanın diplomatik paytaxtlarından birinə çevrilib, respublikamızın qlobal əhəmiyyətli çox mühüm və mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsi ölkəmizin yüksək nüfuzundan xəbər verir: **“Azərbaycan beynəlxalq səviyyədə strateji dialoq və qarşılıqlı etimad mühitinin formalaşmasına da öz töhfəsini verir. Dekabrın 12-də Bakıda Rusiya və NATO-nun ali hərbi rəhbərlərinin növbəti görüşünün keçirilməsi də bunun bariz nümunəsidir. Əlbəttə, bütün bunları görən anti-Azərbaycan dairələr fəallaşmağa başlayırlar, onlar həqiqətləri əks etdirməyən, yalan, iftira və böhtan xarakterli məlumatlar yayırlar”.**

**“Azərbaycan balanslaşdırılmış və çoxvektorlu xarici siyasət kursunu uğurla davam etdirir, respublikamızın Rusiya, İran və MDB ölkələri ilə münasibətləri inkişaf edir. Hətta Azərbaycanın üzv olmadığı təşkilatlarda da ölkəmizə böyük inam və dəstək mövcuddur. Azərbaycanın mütəmadi olaraq qüdrətinin artması, beynəlxalq mövqeyinin daha da möhkəmlənməsi fonunda Ermənistan tənəzzül və silsilə uğursuzluqlarla üzləşir, uçuruma gedir. Bütün bu reallıqların fonunda anti-Azərbaycan dairələr müxtəlif üsullara əl atır, ölkəmizə qarşı qarayaxma kampaniyası aparırlar. Amma bu cür cəhdlərin heç bir nəticəsi olmayacaq, Azərbaycana qarşı qarayaxma kampaniyası aparan qərəzli dairələr iflasa uğrayacaqlar”,** - deyə millət vəkili vurğulayıb.



***Rauf Əliyev:*** *“The Guardian” nəşrində dərc edilmiş material həqiqətləri əks etdirmir, qərəzli və qeyri-obyektiv xarakter daşıyır*

Milli Məclisin deputatı Rauf Əliyev isə bildirib ki, Azərbaycan beynəlxalq müstəvidə yüksək nüfuza malikdir və ölkəmizin dostlarının, tərəfdaşlarının sayı mütəmadi olaraq artır: **“Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü daxili və xarici siyasət nəticəsində ölkəmiz dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir və sabitlik adası kimi tanınır. Ötən müddət ərzində beynəlxalq vəziyyətin gərginləşməsinə, ayrı-ayrı regionlarda qanlı toqquşmaların, müharibələrin, etiraz aksiyalarının baş verməsinə baxmayaraq, Azərbaycanda sabitlik, təhlükəsizlik qorunub saxlanılıb. Regionun siyasi, iqtisadi və humanitar mərkəzi kimi çıxış edən ölkəmiz sivilizasiyalararası dialoqun inkişafına əhəmiyyətli töhfələr verməklə yanaşı, mötəbər beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edir. Digər tərəfdən, Azərbaycan öz təklif və təşəbbüsləri ilə dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə, qlobal xarakterli problemlərin həllinə dəyərli töhfələr verir”.**

**“Ölkəmizin davamlı olaraq güclənməsini istəməyən, beynəlxalq nüfuzunun mütəmadi şəkildə artmasından narahatlıq keçirən qərəzli dairələr tərəfindən Azərbaycana qarşı qarayaxma kampaniyası aparılır. “The Guardian” nəşrində dərc edilmiş material da bu kampaniyanın tərkib hissəsidir. Sözügedən material həqiqətləri əks etdirmir, qərəzli və qeyri-obyektiv xarakter daşıyır. Bu cür vasitələrlə Azərbaycanı inkişaf yolundan və milli maraqlara əsaslanan prinsipial, müstəqil siyasətindən döndərmək mümkün deyil”,** - deyə millət vəkili bildirib.

**Nurlan QƏLƏNDƏRLİ**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Regionlarda əhali elektrik enerjisi ilə yüksək səviyyədə təmin olunur

*Qış aylarında bölgələrdə elektrik enerjisi ilə təchizatda heç bir problem gözlənilmir*



Məlum olduğu kimi, Azərbaycanda həyata keçirilən siyasət bütün sahələrin tərəqqisinə səbəb olub. Bu baxımdan, regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çərçivəsində görülən işlər xüsusi önəm kəsb edir. Məhz bu proqramlar çərçivəsində ötən 15 il ərzində regionlarda genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, həmçinin bölgələrdə istər qazlaşdırma, istər elektrik enerjisi ilə təminat, istərsə də digər kommunikasiya və xidmət sahələrinin yüksək səviyyəyə çatması istiqamətində mühüm addımlar atılıb.

Son illərdə Azərbaycanın güclü infrastruktur təminatına malik ölkəyə çevrilməsi istiqamətində görülən işlər elektrik enerjisi sahəsində də mühüm uğurların əldə edilməsinə səbəb olub.

Ölkəmizdə əhalinin fasiləsiz elektrik enerjisi ilə təminatı istiqamətində atılan addımlar, eləcə də bu sahə üzrə müasir infrastruktur quruculuğu siyasəti uğurla davam etdirilir. Qeyd edilməlidir ki, son 15 ildə istifadəyə verilən generasiya obyektləri respublikamızda sözügedən sahədə reallaşdırılan infrastruktur quruculuğunun bariz nümunəsidir. Əgər 2004-cü ilə qədər Azərbaycanda 3900 meqavat gücündə cəmi 9 elektrik stansiyası mövcud idisə, son 15 ildə respublikamız 30 yeni elektrik stansiyası tikməyə və özünün generasiya güclərini daha 2500 meqavat artırmağa nail olub. Hazırda Azərbaycan həm elektrik enerjisinə olan daxili tələbatını tam olaraq yerli istehsal hesabına ödəyir, həm də müəyyən həcmlərdə ixrac imkanlarımız yaranıb.

Eyni zamanda, ötən 12 ildə "Azərişıq" ASC-nin balansındakı paylayıcı elektrik şəbəkələrində 54 ədəd yeni 110 kV-luq yarımstansiyalar inşa edilib. Yeni inşa edilmiş 35 kV-luq yarımstansiyaların sayı isə 163-ə çatır. 2006-2018-ci illərdə 5322 transformator və komplekt transformator məntəqəsi inşa olunub. 759580 dayaq quraşdırılıb, 47650 kilometr uzunluğunda müxtəlif gərginlikli hava və kabel xətti çəkilib. Silsilə və kompleks tədbirlər hesabına "Azərişıq" ASC-nin regional elektrik şəbəkələrində texniki itkilər 2018-ci ilin 9 ayının yekununa görə 10 faizə endirilib. Respublika üzrə elektrik şəbəkələrinin qoyuluş gücü "Azərişıq" ASC-nin yarandığı 2015-ci ilin əvvəlindəki 9500 meqavoltamperdən 2018-ci ilin sonuna bu göstərici 12900 meqavoltamperə çatdırılacaq.

Artıq qış mövsümünün başlandığını nəzərə alsaq, əhalinin elektrik enerjisinə olan tələbatının da yüksəldiyini deyə bilərik. "Azərişıq" ASC-dən bildirilib ki, qış aylarında elektrik enerjisi ilə təchizatda heç bir problem olmayacaq: **"Bizim əsas missiyamız 24 saat ərzində hər bir abonentimizin keyfiyyətli elektrik enerjisi ilə təchizatıdır".**

Hazırda bütün yarımstansiyalarda cari təmir işləri başa çatdırılır. Elektrik Şəbəkələri hava şəraitinin dəyişkənliyi nəticəsində hər hansı qəza baş verərsə, həmin qəzaların operativ aradan qaldırılmasına tam hazırdır. 24 saat Çağrı mərkəzi fəaliyyət göstərir və abonentlər 199 nömrəsinə zəng edərək problemlərini rahat şəkildə çatdıra bilərlər.

Bakı şəhərinin elektrik şəbəkələrində irimiqyaslı yenidənqurma işləri aparılmaqla yeni güc mərkəzləri yaradılıb, elektrik enerjisi itkilərinin azaldılması, enerji haqlarının vaxtında və tam şəkildə yığılması üçün təşkilati və texniki islahatlar aparılıb, beynəlxalq standartlara uyğun 110 və 35 kV-luq dairəvi elektrik təchizatı sxemləri, yeni 110;35;10;6 və 0,4 kV-luq elektrik şəbəkələri infrastrukturu yaradılıb. Şəhərin paylayıcı elektrik şəbəkəsinin normalara uyğun istismarının təşkili, qorunub saxlanılması, gözlənilən inkişafa uyğun artan elektrik güclərinin qarşılanması üçün lazımi texniki tədbirlərin, yəni mövcud köhnəlmiş şəbəkənin yenilənməsi, genişləndirilməsi, yeni güc mərkəzlərinin, 110 və 35 kV-luq dairəvi elektrik təchizat sxemlərinin yaradılması, qəza hallarında operativliyin yüksəldilməsi və dayanıqlı elektrik enerjisi təminatının yaradılması üçün 24 ədəd 110 kV-luq, 86 ədəd 35 kV-luq, 2062 ədəd 10-6 kV-luq yarımstansiya inşa edilib, 29400 kilometr müxtəlif gərginlikli elektrik veriliş xətləri çəkilib.

"Azərişıq" ASC tərəfindən regionlarda 26 ədəd 110 kV-luq, 64 ədəd 35 kV-luq, 3260 ədəd 10-6 kV-luq yarımstansiyalar inşa edilib, 17725 kilometr müxtəlif gərginlikli elektrik veriliş xətləri çəkilib.

Onu da qeyd edək ki, Abşeron rayonunun Masazır və Məhəmmədi qəsəbələrinin əhali istehlakçı qruplarının elektrik enerjisi təchizatının dayanıqlı və keyfiyyətli təmin olması ilə əlaqədar yeni inşa edilmiş 35/10 kV-luq "Məhəmmədi" və "Masazır" yarımstansiyalarında adıçəkilən qəsəbələrin əlaqələndirici xətləri yenilənib. "Azərişıq" ASC-dən bildirilib ki, Məhəmmədi qəsəbəsinin 2 mindən çox, Masazır qəsəbəsinin isə 4 mindən çox istehlakçısı dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin olunub. Yeni Saray, Mehdiabad və Ceyranbatan qəsəbələrində də yeni inşa olunmuş 35 kV-luq yarımstansiyalarda əlaqələndirici xətlər yenilənir və nəticədə əvvəllər yaranmış qısa fasilələr tam aradan götürüləcək, istehlakçılar dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə tam təmin ediləcək.

Eyni zamanda, "Azərişıq" ASC tərəfindən ölkəmizin Şimal-Qərb regionunda istismar müddətini başa vurmuş elektrik şəbəkələri yenidən qurulur. Texniki itkilərin səviyyəsinin minimuma endirilməsi, kənd təsərrüfatı, sənaye, turizm və digər iaşə obyektlərinin, o cümlədən əhalinin keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi üçün 2018-ci ilin 11 ayı ərzində əsaslı işlər görülüb.

"Şimal-Qərb" RETSİ-nin inzibati ərazisinə daxil olan Oğuz Elektrik Şəbəkəsi üzrə 2018-ci ilin 11 ayı ərzində rayonda elektrik enerjisinin verilişi sahəsində keyfiyyətin artırılması üçün 35/10 kV-luq "Oğuz" Y/st-da 2 ədəd 10 MVA gücündə transformator quraşdırmaqla yeni müasir tipli yarımstansiya tikilib istifadəyə verilib. Balakən rayonunun Kortala kəndində daxili imkanlar hesabına 35/10 kV-luq Y/st-nın da tikintisinə başlanıb. Qəbələ rayonunda isə 110/35/10 kV-luq "Qəbələ" Y/st-dakı 1 ədəd 16 MVA və 1 ədəd 25 MVA transformatorun əvəzinə 2 ədəd 40 MVA gücündə transformator quraşdırılıb və Y/st müasir üslubda yenidən qurulub. Həmçinin Vəndam qəsəbəsində 2 ədəd 16 MVA gücündə transformator quraşdırılaraq, 35/10 kV-luq "Vəndam" Y/st tikilib istifadəyə verilib. "Şimal-Qərb" RETSİ-nin inzibati ərazisinə daxil olan İsmayıllı EŞ-nin 110/35/10 kV-luq "İsmayıllı" Y/st-dakı 1 ədəd 16 MVA və 1 ədəd 10 MVA transformatorun əvəzinə 2 ədəd 16 MVA gücündə transformator quraşdırılaraq modernizasiya işi aparılıb. Rayonun Topçu kəndində isə 1 ədəd 10 MVA gücündə transformator quraşdırılmaqla 110/35/10 kV-luq "Topçu" Y/st fəaliyyətə başlayıb. Y/st-nın 10 kV-luq Qafqaz hava xətti ilə əlaqələndirilməsi üçün 50 ədəd dayaq basdırılaraq, 1.5 km uzunluğunda ikidövrəli xətt çəkilib. Daha bir yarımstansiya Şamaxı rayonunda istifadəyə verilib. Rayonun Nəsimi qəsəbəsində 2 ədəd 10 MVA gücündə transformator quraşdırılaraq, 35/10 kV-luq "Nəsimi" Y/st tikilib və 5 ədəd 10 kV-luq EVX həmin Y/st-nin üzərinə köçürülüb.

Bu ilin 11 ayı ərzində Şimal-Qərb RETSİ üzrə ümumilikdə 98 ədəd yeni quraşdırılmış KTM 10-0,4 kV-luq şəbəkəylə əlaqələndirilib, 500-ə yaxın transformatorda cari təmir işləri aparılıb. Ərazidə istismar müddəti başa çatmış müxtəlif gərginlikli 1825 ədəddən çox dayaq yeniləri ilə əvəzlənmiş 450 km məsafədən artıq hava xətlərində təmir işləri başa çatdırılıb. Hesabat dövründə Şimal-Qərb regionu üzrə 4224 yeni sayğac quraşdırılaraq abonentlərin istifadəsinə verilib.

Qarşıdan gələn qış fəslini nəzərə alaraq regionun bütün ərazilərində, o cümlədən dağlıq yerlərdə texniki baxış və təmir işləri sürətləndirilib. Qəza xidmətinə olunan müraciətlər nəzərə alınaraq xüsusi briqadalar yaradılıb, müraciətlərin dərhal təmin edilməsi üçün xüsusi iş planı hazırlanıb.

Hazırda Şimal-Qərb regionunda 0,4 kV-luq elektrik şəbəkələrinin ÖİN kabellərlə əvəzlənməsi işləri davam etdirilir, yeni avadanlıqlar (dayaqlar, SİP kabellər, KTM-lər və s.) quraşdırılır, sayğaclar dəyişdirilir.

Bu ilin ötən dövründə Hacıqabul rayonunda da sözügedən istiqamətdə əsaslı işlər görülüb. Belə ki, rayonun Qarasu kəndində yeni inşa edilmiş 110/35/10 Kv-luq Qarasu yarımstansiyasında 2 ədəd 50,0 mVa, Pirsaat qəsəbəsində yeni inşa edilmiş 35/6 kV-luq 752 saylı yarımstansiyada isə 2 ədəd 10,0 mVa gücündə transformator quraşdırılıb. Eyni zamanda, Pirsaat qəsəbəsində 7, Navahı kəndində isə 8 ədəd müasir tipli komplekt transformator məntəqələri (KTM) quraşdırılıb.

Bu barədə verilən məlumatda o da qeyd edilir ki, Muğan qəsəbəsində 35 kV-luq Udullu hava xəttinin 1 saylı qapalı paylayıcı qurğuya qoşulmasında 2 ədəd 35 kV-luq dəmir konstruksiyalı aknker dayaq, 8 ədəd 35 kV-luq aralıq beton dayaqlar istifadə olunmaqla 1,4 km məsafədə 35 kV-luq hava xətti çəkilib. Abonentlərə 198 ədəd PAUD smart kart tipli sayğac quraşdırılıb. İlin ilk 9 ayında Navahı kəndində elektrik enerjisinin keyfiyyətini yaxşılaşdırmaq məqsədi ilə 270 ədəd dəmir-beton dayaq basdırılmaqla 13,5 km məsafəyə 6 kV-luq hava xətti çəkilib. Birinci Udullu kəndində 6 ədəd komplekt transformator məntəqələri (KTM) quraşdırılıb, Pirsaat qəsəbəsində 0,4 kV-luq elektrik veriliş xətlərində 824 ədəd metal dayaqlar basdırılıb və 20 km məsafədə açıq naqillər özünü daşıyan izolyasiyalı (ÖİN) naqillərlə əvəz olunaraq istehlakçıların istifadəsinə verilib. Udullu massivində 22 ədəd Komplekt Transformator məntəqələri quraşdırılıb, 6 km 0,4 Kv-luq xətt çəkilib. Atbulaq kəndində 35/6 Kv-luq 751 saylı Atbulaq yarımstansiyasında 4,0 mVa transformator 6,3 mVa transformatorla əvəz olunub. Atbulaq kəndi ərazisində 4 ədəd KTM quraşdırılıb, 670 ədəd 6 kv-luq dayaq basdırılmaqla 21,1 km uzunluqda 6 kv-luq EVX çəkilib. Abonentlərə 296 ədəd PAUD smart kart tipli sayğac quraşdırılıb.

**Nardar BAYRAMLI**

# "Bakcell" və "İNNOLAND" arasında əməkdaşlıq müqaviləsi imzalanıb

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi "Bakcell" şirkəti ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "İNNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi arasında tərəfdaşlıq müqaviləsi imzalanıb.

Dekabr ayının 20-də "İNNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzində baş tutmuş imzalanma mərasimində çıxış edən "Bakcell" şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib ki, innovasiyaların tətbiqi və startaplara dəstək "Bakcell" şirkətinin fəaliyyətində əsas istiqamətlərdən biridir: **"Bakcell" ölkədə startapların inkişafına yönəlmiş layihələrinin həyata keçirilməsini dəstəkləyən ilk şirkətlərdən biri olub. Bizim "AppLab" İnkubasiya Mərkəzi bu gün ölkədə ən maraqlı layihələrin toplandığı məkanlardan biridir. İnanıram ki, yeni açılmış "İNNOLAND" Mərkəzi ilə əməkdaşlığımız ölkədə startap ekosisteminin inkişafına böyük töhfə verəcək və innovasiya sahəsində ən uğurlu tərəfdaşlıqlardan birinə çevriləcək".**

Daha sonra çıxış edən Dövlət Agentliyinin "İnnovasiyalar Mərkəzi"nin direktoru Tağı Tağı-Zadə qurumlar arasında dövlət-özəl tərəfdaşlığını rəsmiləşdirən bu əməkdaşlığın önəmindən danışıb.



Bildirilib ki, bu tərəfdaşlığın əsas məqsədi ölkəmizdə texnologiya startapları üçün sahibkarlıq ekosisteminə dəstək göstərmək və inkişaf etməkdə olan texnologiya sahibkarlarının ehtiyaclarına xidmət göstərən yüksək səviyyəli əməkdaşlığın həyata keçirilməsidir. Azərbaycanda startap mədəniyyətinin formalaşdırılması, bu hərəkatın geniş vüsət alması, innovativ təşəbbüskarlıq ruhunun və startap ekosisteminin inkişaf etdirilməsi, mövcud startapların dəstəklənməsi, ölkəmizdə innovativ təşəbbüslərin mövcud iqtisadi proseslərə tətbiqinə şəraitin yaradılması, müxtəlif kəşf və ixtiraların işlənib və hazırlanmasına maraqoyadıcı amilin formalaşdırılması və innovasiyaların inkişafına əsaslanan digər tədbirlərin görülməsi istiqamətində də bu tərəfdaşlığın böyük əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Qeyd edək ki "İNNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi Azərbaycanda, eyni zamanda, onun hüdudlarından kənarda özəl sektorun inkişaf etdirilməsi, innovasiyanın təşviqi və startap hərəkatının genişləndirilməsi üçün yaradılan inkubasiya, akselerasiya və araşdırma mərkəzidir. "İNNOLAND" Kovörkinq, İnkubasiya, Akselerasiya və İT Təlim-Tədris Mərkəzindən ibarətdir.

Onu da əlavə edək ki, "Bakcell" şirkətinin AppLab proqramı bundan sonra Akselerasiya Mərkəzinə çevriləcək və yerli startap layihələrinə daha geniş formatda dəstək göstərməyə davam edəcək. 2014-cü ildən bəri müxtəlif avadanlıq və proqram təminatlarının tərtibi ilə məşğul olan yerli startaplar və developerlər öz ideyalarını həyata keçirmək üçün "Bakcell"dən dəstək alırlar.

İnnovasiyalar sahəsində özünü doğrultmuş lider olan "Bakcell" şirkəti daim yerli startapların inkişafı, təhsil, elm və texnologiya sahəsində həyata keçirilən layihələrə öz dəstəyini əsirgəmir.

# "Nar" Azərbaycanda keçirilən boks üzrə yarışa dəstək olub

"Nar" özünün korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində Azərbaycanda keçirilən yeniyetmələr arasında boks üzrə açıq birinciliyə dəstək olub. Qeyd edək ki, "Baku Fight Lub" klubunun (keçmiş "Rabitə" idman klubu) təşkilatçılığı ilə keçirilən yarışa 20 komandadan 100 idmançı qatılıb. Açıq birincilikdə yerli idmançılarla yanaşı, əcnəbi boksçular da iştirak edirlər. Qeyd edək ki, Boks Mərkəzində keçirilən yarışda ölkəmizin şəhər və rayonlarından 2001-2002-ci il təvəllüdlü boksçularla yanaşı, iraqlı idmançılar da iştirak edirlər. Yarışa yüksəkdərəcəli hakimlər briqadası nəzarət edir.



Qeyd edək ki, "Baku Fight Lub" klubu "Rabitə" idman klubunun yenilənmiş adıdır. Açılış mərasimində çıxış edən "Baku Fight Lub" klubunun prezidenti Fərhad Acalov bildirib ki, bu cür yarışlar keçirməkdə məqsəd gəncləri idmana cəlb etmək və onların perspektivli gələcəyini təmin etməkdir. Yeniyetmələr arasında boks üzrə açıq birincilik 19-22 dekabr tarixləri arasında keçirilir.

"Baku Fight Lub" klubunun və "Nar"ın birgə əməkdaşlığının əsas məqsədi yeniyetmələrin asudə vaxtının səmərəli təşkil edilməsi, idmana olan marağın artırılması, gənclərin pis vərdişlərdən uzaq olması və sağlam böyüməsidir.

"Nar" korporativ sosial məsuliyyət strategiyası çərçivəsində bundan əvvəl də "Baku Fight Lub" klubunun (keçmiş "Rabitə" idman klubu) dəstəyi ilə kimsəsiz və aztəminatlı ailələrdən olan uşaqlar üçün təşkil edilən boks dərslərinə və təlimlərinə dəstək olub. Artıq üçüncü ildir ki, tələbələr üçün lazım olan təchizatı və digər xərcləri "Nar" təmin edir.

# "Azercell"in Barama Mərkəzindən "Mayak" layihəsinə dəstək

*"İdeyadan Biznesə" layihəsinin final turunda çıxış edən startapa öz fəaliyyətini uğurla davam etdirməsi üçün Barama Mərkəzi yardımçı qismində çıxış edir*



Ölkəmizdə biznes sahəsində yeniliklərə təkan verməyə, rəqəmsal dünya və sahibkarlıq ekosistemini inkişaf etdirməyə yönəlmiş layihələrdə iştirak edən "Azercell Telekom" MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi daha bir startapa dəstək olur. Belə ki, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən startap hərəkatının genişləndirilməsinə və vətəndaşların innovativ ideyalarının reallaşdırılmasına dəstək məqsədilə həyata keçirilən "İdeyadan Biznesə" layihəsinin final turunda çıxış edən "Mayak" layihəsinin öz fəaliyyətini uğurla davam etdirməsi üçün Barama Mərkəzi yardımçı qismində çıxış edir. Mərkəzdə startap komandasına xüsusi yer ayıran Barama rəhbərliyi layihə yaradıcılarını İnkubasiya proqramına da dəvət edərək, mərkəz tərəfindən təşkil olunan bütün tədbir və təlimlərdə iştirakını təmin edib. Dekabrın 21-də "Azercell" şirkətinin əməkdaşları, "YT Park"ın nümayəndəsi "Mayak" layihəsinin yaradıcıları ilə görüşüblər, "Azercell" şirkətinin Korporativ Ünsiyyət şöbəsinin rəhbəri Nigar Şıxlinskaya, Barama Mərkəzinin rəhbəri İ.Bağırov, "İdeyadan Biznesə" layihəsində, eləcə də "Bakutel" sərgisində uğurlu iştirakına görə komandanı təbrik edib, onlara hədiyyələr təqdim ediblər.

Məlumat üçün bildirək ki, "Mayak" layihəsinin məğzi gəncləri təhsil sferasındakı yeniliklər barədə məlumatlandırmaq, eləcə də qrantlar, təqaüd, təcrübə və könüllülük proqramları, layihələr, təlimlər, konfranslar, tədris kursları haqqında informasiyaları portal vasitəsi ilə topluma çatdırmaqdır.

Qeyd edək ki, əsas məqsədi startapçıların öz bizneslərini qurmasına, müasir xidmətlər göstərməsinə və yeni müştərilər əldə etməsinə kömək etmək olan Barama Mərkəzi 2015-ci ildən etibarən ölkənin aparıcı şirkətlərindən biri olan PAŞA Bank tərəfindən dəstəklənir. İlk biznes inkubatoru olan Baramada 9 il ərzində 80-dən çox layihə fəaliyyətə başlayıb ki, onlardan 20-si hazırda müstəqil şirkətlərdir.

## İTMİŞDİR

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin IV kurs 412-ci qrupun tələbəsi Həsənova Günel Rasim qızına məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074

"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Buraxılışa məsul:
Kamran İSMAYILOV